**AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ**

**MƏHKƏMƏ EKSPERTİZASI MƏRKƏZİ**

# MƏHKƏMƏ-ƏMTƏƏŞÜNASLIQ EKSPERTİZASI

(məhkəmə və istintaq orqanları üçün metodik vəsait)

*Məhkəmə Ekspertizası Mərkəzinin Elmi Şurasının qərarı ilə çap olunur*

**BAKI - 2015**

Vəsaiti Məhkəmə Ekspertizası Mərkəzinin İqtisad ekspertizaları şöbəsinin baş eksperti **Etimad Həbibiov** və həmin şöbənin böyük eksperti **Fikrət Vəliməm-mədov** hazırlamışlar.

*Rəyçilər:*

| | |
|---|---|
| **Hamlet Musayev** | hüquq üzrə fəlsəfə doktoru |
| **Nizami Qafarov** | istisad üzrə fəlsəfə doktoru, dosent |

E.Həbibov, F.Vəliməmmədov. **Məhkəmə-əmtəəşünaslıq ekspertizası (məhkəmə və istintaq orqanları üçün metodik vəsait).** “Propolis” MMC, Bakı, 2015, 82 səh.

*Təqdim edilən vəsaitdə məhkəmə-əmtəəşünaslıq ekspertizasının predmeti, vəzifələri, həll etdiyi məsələlər (suallar) dairəsi, obyektləri və tədqiqat üçün lazım olan materiallar, metodiki əsasları və metodologiyası, malların (əmtəənin) bazar qiymətinin müəyyən edilməsi metodikası, nəqliyyat vasitələrinin tədqiqi və qiymətləndirilməsinin metodiki əsasları, ekspert rəylərinin mötəbərliyinin qiymətləndirilməsi, ekspertlərin profilaktik fəaliyyəti kimi elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edən məsələlər kompleksi təhlil edilmişdir.*

*Vəsaitdən məhkəmə-istintaq orqanlarının əməkdaşları ilə yanaşı bu sahədə çalışan ekspertlər, elmi və praktiki işçilər, həmçinin ali məktəb tələbələri də istifadə edə bilərlər.*

**© Məhkəmə Ekspertizası Mərkəzi, 2015.**

# GİRİŞ

Məlum olduğu kimi, məhkəmə - əmtəəşünaslıq ekspertizası – müxtəlif əmtəəşünaslıq yönümlü elmi biliklərin məcmusu əsasında ədalətin bərqərar olunması məqsədilə aparılan ekspert tədqiqatlarının xüsusi növünə aiddir.

Cinayət və mülki işlərin araşdırılması və məhkəmə baxışı zamanı bir çox hallarda əmtəəşünaslıq sahəsinə dair xüsusi biliklərin tətbiqinə, yəni məhkəmə-əmtəəşünaslıq ekspertizasının keçirilməsinə zərurət yaranır. Belə ekspertizalar oğurluq, qaçaqmalçılıq, malların, əmtəə nişanlarının saxtalaşdırılması, yol-nəqliyyat hadisələri nəticəsində nəqliyyat vasitələrinə dəymiş ziyanın qiymətləndirilməsi və digər bu kimi hallarla bağlı işlər üzrə təyin oluna bilər. Əmlak bölgüsü, əmlakın zədələnməsi və ya yararsız hala düşməsi zamanı dəymiş ziyanın qiymətləndirilməsi, eləcə də keyfiyyətsiz məmulatların reallaşdırılması və sair üzrə mülki iddialara baxılması ilə əlaqədar məhkəmə-əmtəəşünaslıq ekspertizaları keçirilir.

Ekspert təcrübəsi də 2009-2014-cü illər ərzində məhkəmə-əmtəəşünaslıq ekspertizaları ilə bağlı Məhkəmə Ekspertizası Mərkəzinə daxil olan işlərin sayının artdığını göstərir. Belə ki, 2009-cü ildə Məhkəmə Ekspertizası Mərkəzinə əmtəəşünaslıq ekspertizasının keçirilməsi ilə bağlı 2470 iş daxil olduğu halda, 2014-cü ildə bu növ işlərin sayı 57,4% artaraq 3888 olmuşdur. Ümumiyyətlə, 2009-2014-cü illəri əhatə edən 6 il ərzində

Məhkəmə Ekspertizası Mərkəzinə əmtəəşünaslıq ekspertizasının aparılmasına dair 19307 iş daxil olmuşdur.

Əmtəəşünaslıq – malların növlərindən, keyfiyyətlərindən, istehlak dəyərindən bəhs edən elmlərin məcmusudur. Məhkəmə-əmtəəşünaslıq ekspertizasının mahiyyəti əmtəənin istehlak dəyərini, habelə məmulatların faktiki keyfiyyətini müəyyənləşdirmək məqsədi ilə onların əmtəə (istehlak) xassələrinin xüsusi biliklərin köməyi ilə araşdırılmasından ibarətdir. Əmtəəşünaslıq tədqiqatının bu əsas vəzifəsi konkret işlər üzrə ekspertiza icraatı zamanı işin hallarından və aparılan tədqiqatın məqsədindən asılı olaraq dəqiqləşdirilir.

Məhkəmə-əmtəəşünaslıq ekspertizasının köməyi ilə məhsulun keyfiyyətinin aşağı düşmə dərəcəsinin tədqiqi məsələləri də həll olunur.

Təəssüf ki, bir sıra hallarda məhkəmə-əmtəəşünaslıq ekspertizasının təyini zamanı ekspert-əmtəəşünas qarşısında həll edilmək üçün onun xüsusi biliklərinin hüdudundan (səlahiyyətlərindən) kənara çıxan, həmçinin mahiyyət etibarilə işin həlli üçün əhəmiyyət kəsb etməyən suallar qoyulur, tədqiqat üçün kifayət etməyən və ya yararsız obyektlər (o cümlədən, sənədlər) təqdim olunur.

Bütün bunlar istintaqın və ya məhkəmə baxışının uzanmasına, həmçinin əlavə ekspertizaların aparılması zəruriliyinin yaranmasına gətirir ki, bu da, öz növbəsində, ekspert-əmtəəşünasların onsuz da az olmayan yükünün daha da artmasına səbəb olur.

Qeyd olunanlar nəzərə alınmaqla vəsaitdə

məhkəmə-əmtəəşünaslıq ekspertizasının elmi-nəzəri əsasları, o cümlədən predmeti və obyektləri, vəzifələri, həll etdiyi məsələlər dairəsi hərtərəfli şəkildə araşdırılmış, məhkəmə-əmtəəşünaslıq ekspertiza icraatının metodiki əsasları və metodologiyası nəzərdən keçirilərək təhlil edilmişdir.

Ölkəmizə gətirilən avtonəqliyyat vasitələrinin hər il dinamik artımı, öz növbəsində, həm yol-nəqliyyat hadisələrinin, həm də nəqliyyat vasitələri ilə bağlı ekspertizaların artmasına səbəb olmuşdur. Məhz buna görə məhkəmə ekspertizalarının yeni növü olan, avtoəmtəəşünaslıq ekspertizasına tələbat yaranmışdır.

Əmlak mübahisələrinin yaranması və avtomobil vasitələrinin istismarı ilə bağlı hüquq pozuntularının araşdırılması zamanı ekspert-əmtəəşünaslara təhqiqat və istintaq orqanları, prokurorluq və məhkəmələr tərəfindən müraciət halları çox olur.

Məhkəmə-avtoəmtəəşünaslıq ekspertizasının əsas vəzifələrindən biri cinayət və mülki işlərin icraatı nəzərə alınmaqla, müasir praktikanın analizi və ümumiləşdirilməsi əsasında ekspert metodikasının təkmilləşdirilməsindən ibarətdir. Qeyd olunanlar nəzərə alınmaqla, xüsusi əmtəə, mürəkkəb məmulat növü kimi avtonəqliyyat vasitələrinin, onların müxtəlif markalarının və modellərinin orta bazar qiymətinin müəyyən edilməsinin metodiki əsasları nəzərdən keçirilmişdir. Məhkəmə Ekspertiza Mərkəzində yol-nəqliyyat hadisələri nəticəsində nəqliyyat vasitələrinə dəymiş ziyanın müəyyən olunması ilə bağlı əmtəəşünaslıq ekspertizalarının təyini və aparılması

vəziyyəti öyrənilmiş, bir sıra metodiki tövsiyələr işlənib hazırlanmışdır.

Vəsaitdə, həmçinin məhkəmə-əmtəəşünaslıq ekspertizası rəylərinin mötəbərliyinin qiymətləndirilməsinin bir sıra meyarları göstərilmiş, bu növ ekspertizaların icraatı zamanı ekspert-əmtəəşünasların profilaktik fəaliyyətinin əsas istiqamətləri qeyd edilmiş, ekspertlər qarşısında qoyulması mümkün olan profilaktik xarakterli sualların təxmini siyahısı verilmişdir.

# 1. MƏHKƏMƏ-ƏMTƏƏŞÜNASLIQ EKSPERTİZASININ PREDMETİ, VƏZİFƏLƏRİ, HƏLL ETDİYİ MƏSƏLƏLƏR

Məlum olduğu kimi, «ekspertiza» termini, mənası «təcrübəli», «bilikli» olan latın «expertus» sözündən yaranmışdır.

Prosessual qanunvericilikdə, xüsusi halda Azərbaycan Respublikası CPM-nin 264.1-ci maddəsində məhkəmə ekspertizasının – elm, texnika, incəsənət və ya sənət sahəsində, habelə müvafiq tədqiqat metodikası üzrə xüsusi biliklər tələb edildikdə cinayət təqibi üçün əhəmiyyətli olan halların müəyyən edilməsi məqsədi ilə aparıldığı qeyd olunur.

Məhkəmə ekspertizası təqdim olunan obyektin bu və ya digər verilmiş xarakteristikalara, əlamətlərə uyğunluq dərəcəsini peşəkarcasına qiymətləndirilməsi məqsədilə elm, texnika, iqtisadiyyat, incəsənət və digər bilik sahəsində xüsusi biliklər tələb edən məsələlərin təcrübəli mütəxəssislər tərəfindən tədqiqatını nəzərdə tutur.

Məhkəmə ekspertizasının təyini, icraatı, həmçinin bu zaman əldə edilən nəticələrdən istifadə qaydaları prosessual qanunvericiliklə tənzimlənir. Məhz bu, qeyri-məhkəmə ekspertizalarından məhkəmə ekspertizasını fərqləndirən əsas əlamətdir.

Ekspertin xüsusi biliklərinin təbiəti öyrənilən obyektlərin xassələri və ekspert qarşısında qoyulmuş

sualların (məsələlərin) həlli üçün istifadə olunan metodlarla müəyyən olunur. Ona görə də ekspertizanın predmeti, obyekti və metodu istənilən növ ekspertizaların, o cümlədən məhkəmə-əmtəəşünaslıq ekspertizasının təsnifatının əsasında duran zəruri əlamətlər keyfiyyətində göstərilir.

Hüquqşünas-alimlərin böyük əksəriyyəti hesab edir ki, məhkəmə-əmtəəşünaslıq ekspertizasının predmetini, məhkəmə-əmtəəşünaslıq ekspertizası vasitəsilə müəyyən olunan faktlar və hallar (faktiki məlumatlar) təşkil edir. Xüsusi ədəbiyyatda predmetin bir qədər fərqli şəkildə formulə edilməsinə də təsadüf etmək mümkündür. Bu halda məhkəmə-əmtəəşünaslıq ekspertizasının predmeti dedikdə – məhkəmə-iqtisad ekspertizası vasitəsilə həll edilən sualların (məsələlərin) dairəsi başa düşülür. Bu da mahiyyəti dəyişdirmir, çünki hər iki halda müəlliflər onların mahiyyətini nəzərdən keçirərkən adekvat şərhlər verirlər[1].

Məhkəmə-əmtəəşünaslıq ekspertizası – müxtəlif əmtəəşünaslıq yönümlü elmi biliklərin məcmusu əsasında ədalətin bərqərar olunması məqsədilə aparılan ekspert tədqiqatlarının xüsusi növünə aiddir.

İstənilən elm kimi, məhkəmə ekspertizası da öz tədqiqat predmetini formalaşdırır. Tədqiqat predmeti, elmi nəzəriyyənin tarixi şəraitlərindən və inkişaf səviyyəsindən, maddi obyektin idrakı və mənimsənilmə dərəcə-

---

[1]Чаадаев С.Г., Чадин М.В. Судебно-экономическая экспертиза//Черные дыры в российском законодательстве. 2001. №1, с.17.

sindən, həmçinin idrakın müəyyən metodoloji vasitə, metod və üsulları kompleksinin mövcudluğundan asılıdır.

Buna görə də hər bir məhkəmə ekspertizası növünün predmeti məzmun və struktur etibarilə statik deyil, dinamik kateqoriyadır.

Y.Q.Koruxovun fikrincə, ekspertizanın predmeti müəyyən edilərkən idrak predmetinin ümumfəlsəfi anlayışından çıxış edilməlidir[1].

V.A.Ştoff «fakt» sözünün məna yükünü fəlsəfi nöqteyi-nəzərdən izah edərək qeyd edirdi ki, fakt insan tərəfindən müəyyən edilən, onun tərəfindən dərk olunan, müşahidə və ya eksperiment vasitəsilə qeydə alınan reallığın fraqmentidir[2].

«Fəlsəfə ensiklopedik lüğətdə isə göstərilir: «İdrakın predmeti – obyektlərin mövcud şəraitdə və vəziyyətdə müəyyən məqsədlə tədqiq olunan, təcrübədə müəyyənləşdirilən və insanın əməli fəaliyyəti prosesinə daxil edilən tərəfləri, xassələri və münasibətləridir»[3].

«Məhkəmə ekspertizasının əsas terminləri lüğəti»ndə «ekspertizanın predmetinin ekspert tədqiqatı obyekti və müstəntiqin (məhkəmənin) sualları ilə müəyyən olunduğu» [4] qeyd olunur. Belə bir mövqe

---

[1]Корухов Ю.Г. Экспертные и неэкспертные трасологические исследования в уголовном процессе//Актуальные проблемы теории судебной экспертизы. Сю.н.тр. ВНИИСЭ. М., 1984, с.26.
[2]Штоф В.А. Проблемы методологии научного познания. М., 1978, с.123.
[3]Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997, s.172.
[4]Словарь основных терминов судебной экспертизы. М., 1987, с.60.

müəyyən etirazlar doğurur. Belə ki, ekspertizanın təyini haqqında qərarda əks olunan suallar əsasında formulə edilən ekspert tapşırığının məzmunu ekspertiza predmetini dar və ya qismən, natamam şəkildə müəyyən edə bilər[1].

V.D.Arsenyev məhkəmə ekspertizası predmetinə bir qədər fərqli yanaşır. Müəllifin fikrincə, məhkəmə ekspertizasının predmetini iş üzrə əhəmiyyət kəsb edən və uyğun bilik sahələrinə daxil olan məsələlərin həlli məqsədilə bu ekspertiza sahəsinin texniki vasitələri, metodları və metodikaları ilə tədqiq edilərək dərk olunan ekspertiza obyektinin ayrı-ayrı tərəfləri, xassələri və münasibətləri çıxış edir[2].

Məhkəmə ekspertizasının hər bir cinsinin (növünün) öz predmeti, yəni iş materiallarının tədqiqi yolu ilə müəyyən olunan özünəməxsus faktiki halları (faktiki məlumatları) vardır. Hər bir ekspertiza faktların müəyyən edilməsi üçün təyin edilərək keçirilir, lakin bu faktlar müxtəlif cins və növ ekspertizalar üçün spesifikdir.

Cinayət və mülki işlərin araşdırılması və məhkəmə baxışı zamanı bir çox hallarda əmtəəşünaslıq sahəsinə dair xüsusi biliklərin tətbiqinə, yəni məhkəmə-əmtəəşünaslıq ekspertizasının keçirilməsinə zərurət yaranır. Belə ekspertizalar oğurluq, malların saxtalaşdırılması və digər bu kimi hallarla bağlı işlər üzrə təyin

---

[1]Белкин Р.С. и др. Теория доказательств в советском уголовном процессе. М., 1973, с.716.

[2]Арсеньев В.Д. Соотношение понятий предмета и объекта судебной экспертизы//Проблемы теории судебной экспертизы.

oluna bilər.

Əmlakın bölüşdürülməsi, əmlakın balansdan silinməsi, əmlak zədələndikdə və ya yararsız hala düşdükdə ziyanın əvəzinin ödənilməsi, eləcə də keyfiyyətsiz məmulatın satışı üzrə mülki iddiaların baxılması ilə əlaqədar bir çox ekspertizalar keçirilir[1].

Məhkəmə-əmtəəşünaslıq ekspertizasının mahiyyəti məmulatların faktiki keyfiyyətini müəyyənləşdirmək məqsədi ilə onların əmtəə (istehlak) xassələrinin xüsusi biliklərin köməyi ilə araşdırılmasından ibarətdir. Əmtəəşünaslıq tədqiqatının bu əsas vəzifəsi konkret işlər üzrə ekspertiza icraatı zamanı işin hallarından və aparılan tədqiqatın məqsədindən asılı olaraq dəqiqləşdirilir.

Məhkəmə-əmtəəşünaslıq ekspertizasının köməyi ilə məhsulun keyfiyyətinin enmə (korlanma) dərəcəsinin tədqiqi məsələləri də həll olunur ki, bu da, öz növbəsində, həm istehsal prosesinin (istehsal texnologiyasının) pozulmasından, həm də məmulatların qablaşdırılması, daşınması, saxlanması zamanı mühafizə qaydalarına riayət olunmamasından irəli gəlir.

Məhkəmə-əmtəəşünaslıq ekspertizasının predmetini, vəzifələrini və həll etdiyi məsələlər dairəsini daha tam və hərtərəfli təhlilindən əvvəl, bu növ ekspertiza icraatının elmi-nəzəri və metodoloji əsaslarını təşkil edən əmtəəşünaslıq elminin mahiyyətinin, vəzifələrinin və məqsədlərinin nəzərdən keçirilməsi məqsədəuyğun hesab edilməlidir.

---

Сб.н.тр. М., 1980. Вып.44, с.9-10.

[1]Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.36

Əmtəəşünaslıq – malların növlərindən, keyfiyyətlərindən, istehlak dəyərindən bəhs edən elmlərin məcmusudur.

Əmtəə (ərəbcə «məta» söz. cəmi) – mübadilə üçün istehsal edilən əmək məhsulları; mal. Əmtəə insanın hər hansı bir ehtiyacını təmin edən, habelə başqa şeyə dəyişdirilən şeydir.

«Əmtəəşünaslıq» termini iki sözün birləşməsindən əmələ gəlmişdir: «əmtəə» və «şünaslıq». Deməli, əmtəəşünaslıq – əmtəə (mal) haqqında bilik deməkdir.

2010-cu ildə nəşr olunmuş «İzahlı statistika terminləri lüğətin»də «əmtəə» terminin aşağıdakı kimi şərhi verilir: Əmtəə – (1) - yararlı xüsusiyyətlərə malik olan və satış üçün nəzərdə tutulmuş bazar iqtisadiyyatının ən vacib kateqoriyasıdır, fəaliyyət obyektidir, maddi və ya qeyri-maddi substansiyadır. Əmtəəyə aid edilir: əmək və ya təbii fəaliyyətin nəticəsi olan, əşya formasına malik olan – məhsullar; tikililər, müəssisələr, firmalar; maliyyə, məlumat və intellektual məhsullar; məhsulun qeyri-maddi formaları, məsələn, əmtəənin markası və s., həmçinin xidmətlər.

(2) – mübadilə predmeti ola bilən məhsuldur. O, çeşid növlərindən biri, yeganə əsər (məsələn, rəsm əsərləri), ya da iş üçün aralıq material (proqram təminatı üçün disket) ola bilər.

Əmlakın bazar dəyəri – əmlakın pul ifadəsində qiymətidir və o, açıq bazarda əmlakın xüsusiyyətləri haqqında xəbərdar olanların və tipik səbəbləri olan və əmlakın satışı kifayət qədər uzun müddətə qoyulması

şəraitində öz xeyrini güdmək maraqlarına malik alıcı və satıcıları məcbur etmədən, fəaliyyət göstərənlərin arasındakı rəqabət şəraitində bir əldən o biri ələ keçməsidir. Əmlakın dəyəri, onun satış xərclərini çıxmaqla, xalis bazar dəyəridir.

Əmlakın bərpa dəyəri – əmlakın, onu əvəz edən oxşar funksiya xüsusiyyətlərinə malik, lakin müasir tikinti norma, material və texnologiyanın tətbiqi ilə yenidən yaradılması üzrə çəkilən cari xərclərdir[1].

Elmi bilik sahəsi kimi «əmtəəşünaslıq» əmtəələrin xassələrini, təbiətini, onların istehlak dəyərini müəyyən edən və bu xassələri təmin edən amillərdən bəhs edir.

Əmtəəşünaslıq elmi əmtəə istehsalının inkişafı prosesindən və formalaşmasından yaranmışdır. Əsrlər boyu inkişaf etmiş cəmiyyətdə əmtəə istehsalı və əmtəə tədavülü olduğu kimi qalmaqdadır. Çünki ictimai istehsalın məhsulu əmtəə hesab edilir. Əmtəə isə hər şeydən əvvəl xarici bir predmet, əşya olub, öz xassələrinə görə insanların bu və ya digər tələbini ödəmə qabiliyyətinə malikdir.

Əmtəənin mahiyyətini nəzərdən keçirərkən və onun istehsalına sərf olunan əməyin ikili xarakterini qeyd edərək K.Marks əmtəənin dialektik vəhdətinin təşkil edən istehlak dəyərini və dəyərini[2] izah etmişdir.

---

[1] İzahlı statistika terminləri lüğəti/Lüğət A.N.Mansurovun təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq tərtib olunmuşdur. Bakı, 2010, s.201

[2] Dəyər – əmtəə istehsalçılarının əmtəədə maddiləşmiş ictimai əməyidir. Əmtəənin dəyər kəmiyyəti onun istehsalı üçün ictimai zəruri olan maddiləşmiş əməyin miqdarı ilə müəyyən olunur və ictimai zəruri iş vaxtı ilə – mövcud ictimai normal istehsal şəraitində

Əmtəənin istehlak dəyərinin üç əsas cəhətini biri-birindən fərqləndirmək lazımdır:

1.Əmtəənin istehlak dəyəri əmtəənin yararlığıdır və insan üçün yararlı olan əmtəənin xassələridir. Məhz əmtəənin yararlığı onun istehlak dəyərini yaradır və bu da əmtəə məhsulu ilə qırılmaz surətdə əlaqədardır, başqa sözlə, əmək məhsulunun özündə maddiləşməsidir. Ona görə də, əmək məhsulu özü «istehlak dəyəri, yaxud nemətdir». Nemət hər hansı bir şey və ya əşyadır, o, insan tələbatını ödəyir. Mübadilə üçün istehsal olunan spesifik iqtisadi nemətə əmtəə deyilir. Neməti heç bir xarakterindən asılı olmayaraq onun mübadilə üçün, satılmaq üçün istehsal olunması həmin neməti əmtəə edir.

2.Əmtəələrin istehlak dəyəri əmtəənin insanların müəyyən bir tələbini ödəmə qabiliyyətidir. İstehsal edilmiş əmək məhsulu ancaq potensial istehlak dəyərinə malikdir. Əmtəənin həqiqi, real istehlak dəyərinə malik

---

əmtəə hazırlanması üçün lazım olan vaxtla ölçülür. Əslində ictimai zəruri iş vaxtı – əmtəə kütləsinin əsas hissəsini buraxılan müəssisələrin müəyyən növ əmtəə istehsalına sərf etdikləri iş vaxtıdır. Əmtəə dəyərinin kəmiyyəti onun hazırlanmasına sərf olunan əməyin miqdarı ilə düz, əmək məhsuldarlığı ilə tərs mütənasibdir. Dəyər göstəriciləri – iqtisadi hadisələri dəyər (pul) ifadəsində səciyyələndirən və qiymətlərin köməyi ilə müəyyən edilən göstəricilər(Bax: Qısa iqtisadi lüğət. Bakı, 1989, s.42). İstehlak dəyəri – əşyanın faydalılığı, insanın bu və ya digər tələbatını ödəmə qabiliyyətidir. İstehlak dəyəri sərvətin maddi məzmununu əmələ gətirir. İstehlak dəyəri sərvətin maddi məzmununu əmələ gətirir. Bax: Qısa iqtisadi lüğət. Bakı, 1989, s.113.

olması üçün o, mütləq istehlakçı tərəfindən alınmalıdır. Malın hər hansı bir istehlak tələbini ödəyə bilməsi yalnız alqı-satqı prosesi zamanı təsdiq olunur. Mübadilə prosesində əgər əmtəə istehlakçı tərəfindən alınmırsa, o, öz istehlak dəyərini itirmiş olur. Məhsul o zəman əmtəə sayılır ki, o, kommersiya fəaliyyəti prosesində alınıb-satılır.

3.Əmtəələrin istehlak dəyəri yalnız istifadə, yaxud istehlak zamanı həyata keçirilir. Dahilərin dediyi kimi: «....yalnız istehlak prosesində əmtəə həqiqətən əmtəə ola bilər».

Beləliklə, əmtəə əməyin məhsuludur, insan üçün yararlı olan xassələri özündə əks etdirir, insanın tələbatını ödəmək qabiliyyətinə malikdir və onun istehlak dəyəri bilavasitə istehlak zamanı həyata keçirilir.

1856-cı ildə nəşr olunan «Kommersiya sorğusu lüğəti» kitabında İ.Vavilov əmtəəşünaslığa belə tərif vermişdir: «*Əmtəəşünaslıq* – mal haqqında, onların növü, mənşəyi və satılması, alınması və satış vasitələri, daşınması və saxlanılması üsulları haqqında dəqiq və tam məlumatları öyrənən bir elmdir».

K.Marks özünün 1867-ci ildə nəşr olunmuş məşhur «Kapital» əsərinin 1-ci cildində əmtəəşünaslığın ***predmeti*** ilə bağlı qeyd etmişdir ki, «əmtəələrin istehlak dəyəri xüsusi elmin – əmtəəşünaslığın predmetidir». K.Marksa görə əşyaların dəyərliyi onu istehlak dəyəri edir. Bu dəyərlik isə havadan asılı deyildir. Əmtəələrin cismani xassələrinə əsaslanan bu dəyərlilik əmtəədən kənarda mövcud deyildir. Ona görə də əmtəənin cismi,

məsələn, dəmir, buğda və s. özlüyündə istehlak dəyəridir. Əmtəənin istehlak dəyəri onun əmtəəşünaslıq xarakteristikasının əsasını təşkil edir.

Əmtəəşünaslığın ümumi problemlərinə həsr olunmuş ali məktəb müəllimlərinin 1962-ci ildə Leypsiqdə keçirilən beynəlxalq nəzəri konfransı, başqa elmi bilik sahələri arasında əmtəəşünaslığın yerini müəyyənləşdirmiş və ona belə tərif vermişdir: «Təbiət-texniki yönümlü elmi bilik sahəsi olan əmtəəşünaslığın predmetini əmtəələrin istehlak dəyəri təşkil edir».

Əmtəəşünaslıq malların istehlak dəyərini, onların təsnifatını, standartlaşdırılmasını, malların keyifyyətini formalaşdıran və keyfiyyətini qoruyan amillərini, çeşidin formalaşmasının qanunauyğunluqlarını və onun quruluşunu öyrənən elmi bilik sahəsidir.

Əmtəəşünaslığın ***məqsədi*** əmtəələrin istehlak dəyərini yaradan əsas xassələrinin, habelə mal yeridilməsinin bütün mərhələlərində bu xassələrin dəyişməsinin öyrənilməsindən ibarətdir.

Müxtəlif əmtəələr (iqtisadi nemətlər) insanların müxtəlif tələbatını ödəyir. Məsələn, çörək, ət, yağ və digər ərzaq məhsulları insanların yeməyə olan tələbatını, maşınlar, dəzgahlar, avadanlıqlar istehsal tələbatını ödəyirlər. Əmtəənin faydalılığı, insanın bu və ya digər bir tələbatını ödəmək xassəsi onun istehlak dəyərinə malik olmasını şərtləndirir.

Əmtəə ictimai istehlak dəyərinə malik olmalıdır. Əmtəənin istehlak dəyəri elə bir spesifik istehlak dəyəridir ki, o, ancaq mübadilə yolu ilə istehsaldan istehlaka daxil

olur. Odur ki, burada məhsulun istehlak dəyəri mübadilə dəyərinin daşıyıcısına çevrilir.

Məhsulun əmtəəyə çevrilməsi üçün mübadilə dəyərinin olması əsas şərtdir. İnsanın bu və ya digər tələbatını ödəmək xassəsi əmtəənin istehlak dəyəri, digər əmtəələrə dəyişdirilə bilmək qabiliyyəti isə onun mübadilə dəyəridir.

Əmtəəşünaslığın bir elmi bilik sahəsi kimi əsas **vəzifələrindən** biri məhsulların (əşyaların) keyfiyyətini öyrənməkdir.

Məhsulların (məmulatların, əşyaların) istehlak dəyəri və keyfiyyəti onların yararlılıq əlaməti ilə sıx əlaqədardır. «İstehlak dəyəri» və «keyfiyyət» anlayışlarının ümumi əlamətləri eyni olsalar da, öz aralarında bir sıra xüsusi əlamətlərə görə fərqlənirlər. «İstehlak dəyəri» anlayışı «keyfiyyət» anlayışına nisbətən genişdir və bu, əmtəəşünaslığın əsas problemlərindən biridir.

İstehlak dəyəri baxımından eyni cinsli məhsulu ölçmək olar. Keyfiyyət baxımından isə məhsulun yalnız eyni növlərini qiymətləndirmək olar. İstehlak dəyəri də, həmçinin, keyfiyyət kimi xassələrin məcmusudur. Lakin istehlak dəyərini təyin edən xassələrin məcmusu keyfiyyəti təşkil edən xassələrin məcmusundan genişdir.

İstehlak dəyəri ilə keyfiyyət arasında ümumilik ondan ibarətdir ki, onlar konkret əməyin məhsulu olub, istehlak prosesində aşkar olunurlar. İstehlak dəyəri anlayışını keyfiyyətlə əlaqələndirərək qeyd etmək lazımdır ki, keyfiyyət malın istehlakı zamanı təyinatına müvafiq olaraq tələbatı ödəmə dərəcəsini təyin edən xassələrin

məcmusudur.

Əmtəəşünaslıq elmi hər şeydən əvvəl malın (əlamətinin) xarici və daxili xüsusiyyətlərinin tədqiqini tələb edir. Bütün bunların öyrənilməsi **əmtəəşünaslıq elminin əsas (birinci) vəzifəsidir**. Burada malın istehlak dəyərinin, onun keyfiyyətinin, fiziki xassələrinin öyrənilməsi, məhsulların (əşyaların) təsnifləşdirilməsi, standartlaşması, kodlaşdırılması bilavasitə təcrübəvi işə əsaslanır.

Malların (xammalın) xassələri, saxlanması və istehsal prosesinin *keyfiyyət amili* nöqteyi-nəzərdən öyrənilməsi **əmtəəşünaslığın ikinci əsas vəzifəsidir**. Əmtəəşünaslıq elminin **üçüncü əsas vəzifəsi** malın saxlanılmasının düzgün təşkili məsələlərinin öyrənilməsindən və müəyyən edilməsindən ibarətdir. Malın istehlak dəyərinin, onların arasında olan əlaqəliliyin və keyfiyyəti qoruyan amillərin (qablaşdırma, saxlanılma və daşınma) öyrənilməsi birlikdə əmtəəşünaslığın vəzifələrini əhatə edir.

Bir elm kimi əmtəəşünaslığın anlayışı, mahiyyəti, strukturu, vəzifələri ilə bağlı elmi-nəzəri aspektlərin təhlili əsasında qeyd edə bilərik ki, məhkəmə-əmtəəşünaslıq ekspertizasının əsas vəzifəsi istehlak mallarının istehlak xüsusiyyətlərinin müəyyən olunması, onların cinsi və çeşid eyniliyini, keyfiyyətini, miqdarını, çeşidini, növünü, artikulunu, ölçüsünü, komplektliyini, qiymətini, təbii itki normasının tətbiq edilməsinin düzgünlüyünü, əmtəənin hansı ölkədə istehsal olunmasını müəyyən etməklə saxlanma müddəti, daşınması, satışı və qablaşdırılması şərtlərinə əməl olunması və ticarətin təşkili barədə

sualların həll edilməsindən ibarətdir[1].

Məhkəmə ekspertizası - iş üçün sübutedici əhəmiyyət kəsb edən faktiki halların müəyyən edilməsi üçün elm, texnika, incəsənət, sənət sahəsində xüsusi biliklər əsasında bilikli şəxslər tərəfindən prosessual qanunvericiliyə uyğun keçirilən tədqiqatdır.

Bu anlayışa uyğun olaraq əmtəəşünaslıq ekspertizasının predmeti - əmtəəşünaslıq sahəsində xüsusi elmi biliklər əsasında obyektlərin və digər iş materiallarının tədqiqi vasitəsilə müəyyən edilən faktiki məlumatlardır (faktlar, hallardır).

Əmtəəşünaslıq sahəsində xüsusi biliklər – mahiyyəti əmtəəşünaslıq elminin predmeti ilə müəyyən olunan əmtəəşünaslıq sahəsində peşəkar biliklərdir. Əmtəəşünaslığın özü isə - məişətdə, istehsalatda və sair sahələrdə insanların müəyyən tələbatlarını ödəmək nöqteyi-nəzərindən əmtəəni (malları, əşyaları, məmulatları), onun keyfiyyət və dəyər xarakteristikalarını öyrənən elmdir.

Ş.Abdurahmanov yazır: «Məhkəmə-əmtəəşünaslıq ekspertizası dedikdə, istehlak mallarının standartlara uyğun olmasının, onların köhnəlmə faizinin, qiymətlərinin, harada və necə istehsal olunmasının, dəymiş ziyanın məbləğinin müəyyən edilməsi məqsədilə CPM-in tələblərinə müvafiq olaraq hüquq-mühafizə orqanlarının qərarı əsasında iqtisadi və texniki biliklərə malik mütəxəssislər tərəfindən aparılan tədqiqatlar başa

[1]Məhkəmə ekspertizası qarşısında qoyulan sualların nümunəvi siyahısı. Bakı, 2005, s.140

düşülür»[1].

Beləliklə, məhkəmə-əmtəəşünaslıq ekspertizasının predmeti tədqiq olunan əmtəə xarakterli obyektlərin xüsusiyyətlərinin baza (normativ) göstəricilərlə uyğunluğunu təsdiq və ya inkar edən faktiki məlumatların müəyyən olunmasından, eləcə də malın keyfiyyətinin aşağı düşməsinə səbəb ola biləcək halların, yəni malın qablaşdırılması, markalanması, saxlanması, daşınması, çeşidlərə ayrılması və qiymətləndirilməsi qaydalarına riayət olunmaması ilə bağlı faktiki məlumatların müəyyən edilməsindən ibarətdir[2].

Məhkəmə-əmtəəşünaslıq ekspertizası çərçivəsində onun mahiyyətini təşkil edən, həll edilməli məsələlər dairəsini müəyyən etmək mümkündür:

- məhsulun keyfiyyət və komplektliliyinə görə standartların, texniki şərtlərin və ya digər normativ sənədlərin tələblərinə, eləcə də keyfiyyət sertifikatına və ya etalon nümunələrə uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi;

- məhsulun keyfiyyət dəyişkənliyinin mahiyyətinin müəyyən edilməsi (qüsurların mövcudluğunun və onların malın keyfiyyətinə təsirinin müəyyən edilməsi);

- malın keyfiyyətinin faktiki xüsusiyyətlərinin yarlık və etiketdə əks olunan marka nişanına uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi;

- mal və ya malların bir qrupa (artikula, növ və

---

[1] Məhkəmə ekspertizası. Sxemlər toplusu (Dərs vəsaiti). Bakı, 2007, s.202.

[2] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.36-37

cinsə) mənsubiyyətinin müəyyən edilməsi;

- malın faktiki əmtəə xassələrinin onun satışı üçün müşayiət sənədlərində əks etdirilən keyfiyyət göstəricilərinə uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi;

- qablaşdırmanın (üsulun, vasitənin) normativ tələblərə uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi;

- məhsulun daşınması şərtlərinin TŞ və digər normativ sənədlərin tələblərinə uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi;

- məhsulun saxlanma şərtlərinin və müddətlərinin normativ tələblərə uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi;

- məhsulun keyfiyyət dəyişkənliyinə konkret amillərin təsiri mümkünlüyünün müəyyən edilməsi;

- məhsulun keyfiyyətə görə qəbul edilməsi və sınaqdan keçirilməsi qaydasının normativ sənədlərdə nəzərdə tutulmuş qaydalara uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi[1].

Ş.Abdurahmanov məhkəmə-əmtəəşünaslıq ekspertizası qarşısında qoyulan sualların aşağıdakı təsnifatını verir:

- istehlak mallarının hər hansı bir vaxtda pərakəndə satış qiymətlərinin müəyyən edilməsinə yönəlmiş suallar;

- istehlak mallarının istehsalat yerlərinin, üsullarının

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.37-38

müəyyən edilməsinə yönələn suallar;

- malların istismar müddətindən asılı olaraq aşınmasının düzgün hesablanmasına yönəlmiş suallar;

- malların hansı növə aid olmasını və onların keyfiyyətinin müəyyən edilməsinə yönəlmiş suallar;

- istehlak mallarının istifadə üçün yararlı olub-olmamasının yoxlanılmasına yönəlmiş suallar;

- inventarizasiya və təftiş aktlarında artıqlıq və çatışmazlıqların nəticəsində dövlətə dəymiş ziyanın məbləğinin müəyyən edilməsinə, həmçinin malların düzgün əvəzləşmələrini və təbii itkinin düzgün silinməsini müəyyən etməyə yönəlmiş suallar[1].

Qeyd olunan məsələlərin həlli məqsədi ilə məhkəmə-əmtəəşünaslıq ekspertizası qarşısında aşağıdakı suallar qoyula bilər:

- Məmulatların faktiki xüsusiyyətləri (artikul, sort, ölçü göstəriciləri və s.) yarlık və ya etiketdə göstərilən məlumatlara uyğun gəlirmi? Əgər gəlmirsə, onda bu fərqlər nədən ibarətdir?

- Təqdim olunan malın markalanması necə şərh oluna bilər, onun üzərində olan rəqəm və hərflər hansı mənanı daşıyır, markalanmanın göstəriciləri məmulatların faktiki keyfiyyətinə uyğundurmu?

- Malın yarlıkında, etiketində təsvir olunmuş simvollar (artikul, ölçü və s.) tədqiq olunan mal növü üçün müəyyənləşdirilmiş normativ göstəricilərə uyğun gəlirmi? Əgər gəlmirsə, hansı fərqlər mövcuddur?

---

[1]Məhkəmə ekspertizası. Sxemlər toplusu (Dərs vəsaiti). Bakı, 2007, s.204

- Məmulatların keyfiyyət xüsusiyyətləri nümunə kimi təqdim olunmuş digər məmulatların analoji göstəricilərinə uyğun gəlirmi? Əgər gəlmirsə, onda bu fərqlər nədən ibarətdir?

- Tədqiqata təqdim olunan məmulatların üzərində olan qüsurlar bu mal növü üçün normativlərlə müəyyən edilmiş keyfiyyət və sortluluğa təsir göstərirlərmi? Əgər edirlərsə, onlar nədər ibarətdir?

- Keyfiyyət sertifikatları tədqiqata təqdim edilmiş məmulatların üzərində aşkar edilmiş qüsurlarla birgə malların satışını mümkün edirmi? Əgər etmirsə, onda hansı qüsurlar zamanı məmulatlar keyfiyyətsiz məmulata çevrilir? Əgər edirsə, onda məmulatların keyfiyyət dərəcəsi neçə faiz enir?

- Müşayiət sənədlərində göstərilən artikul, ölçü, sortlar faktiki artikula, ölçü və sorta uyğundurmu?

- Həmin məmulatların faktiki keyfiyyəti bu mal növü üçün müəyyən edilmiş standart tələblərə və texniki şərtlərə uyğun gəlirmi? Əgər gəlmirsə, onda qüsurlar nədən ibarətdir? Malın aşkar qüsurlarla satışı mümkündürmü?

- Məmulatların üzərində aşkar edilmiş qüsurlar onların istehlak xassələrinə təsir göstərirmi? Əgər göstərirsə, onda keyfiyyətin enmə dərəcəsi standartla müəyyən edilmiş normalar həddindədirmi?

- Malın qablaşdırılması standart tələblərə və texniki şərtlərə cavab verirmi; əgər vermirsə, onda qablaşdırma malın keyfiyyətinin enməsinə necə təsir göstərə bilər?

- Malın daşınma şəraiti normativ sənədlərlə

müəyyən edilmiş şərtlərə cavab verirmi? Əgər vermirsə, onda malın qeyri-düzgün daşınması nəticəsində onun keyfiyyətinin pisləşməsi baş verə bilərdimi?

- Malın konkret saxlanma şərtləri onun keyfiyyətinin enməsinə təsir göstərə bilərmi?

- Məmulatlar müəyyən edilmiş qaydalara uyğun keyfiyyət, həcm, rəng və digər göstəricilərə görə komplekt və ya dəst şəklində yığılıbmı? Əgər yığılmayıbsa, onda onların sonrakı satışı mümkündürmü?

- Malların qəbulu DÖST-lə nəzərdə tutulmuş qaydalara riayət olunmaqla həyata keçirilib? Əgər keçirilməyibsə, onda hansı qayda pozuntularına yol verilmişdir?

- Qüvvədə olan normativ sənədlər sistemi qəbul edilən malın keyfiyyəti üzərində lazımi nəzarəti təmin edirmi?[1]

Ekspert təcrübəsi göstərir ki, məhkəmə-əmtəəşünaslıq ekspertizası qarşısında bir sıra hallarda ekspert-əmtəəşünasın səlahiyyətləri hüdudundan kənara çıxan aşağıdakı suallar da qoyulur:

- məmulatın ayrı-ayrı hissələrinin vahid bir tama məxsusluğunun müəyyən edilməsi;

- məmulatların istehsalçı-müəssisəsinin və onların istehsal tarixinin müəyyən edilməsi;

- məmulatın istehsal üsulunun (kustar və ya zavod) müəyyən edilməsi;

- hüquqi xarakterli məsələlər və s.

Onların bəzilərini nəzərdən keçirək.

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.38-39

Məmulatların ayrı-ayrı hissələrinin vahid tama məxsusluğunun müəyyən edilməsi haqqında sualın həlli eyniləşdirici tədqiqatların aparılmasını tələb edir ki, bu da məhkəmə-əmtəəşünaslıq ekspertizasının imkanları çərçivəsindən kənara çıxır. Eyniləşdirici tədqiqatların aparılması, belə adlandırılması mümkündürsə, ənənəvi kriminalistik ekspertizalar çərçivəsində həll edilən məsələlərə aiddir. Məhkəmə-əmtəəşünaslıq ekspertizası çərçivəsində yalnız bilavasitə əmtəəşünaslıq məsələlərinin həlli mümkündür: ayrı-ayrı vahidlərin və ya malların məcmusunun eyni qrupa mənsubiyyətinin müəyyən edilməsi.

Həmçinin, məmulatı hazırlayan istehsalçı-müəssisənin müəyyən edilməsi uyğun istintaq hərəkətlərini aparmadan mümkün deyildir. Bu istintaq hərəkətlərinin aparılması isə ekspert-əmtəəşünasın səlahiyyətlərinə aid deyildir. Bu cür məsələlərin həlli üçün markalanmada olan qeydlərdən istifadə edilməsi isə korrekt deyildir. Çünki onlarda yalan məlumatlar əks oluna bilər, yəni saxta ola bilərlər.

Məsələn, ekspert-əmtəəşünasın qarşısında belə bir sual qoyulur: «Gödəkçə və başlıq bir paltar məmulatını təşkil edirlərmi? N....üzərində aparılan axtarış zamanı aşkar edilən kəndir hadisə yerində aşkar edilmiş kəndir parçası ilə eynidirmi? Bu cür suallar ekspert-əmtəəşünas tərəfindən həll edilə bilməz, çünki onlar eyniləşdirici məsələlər kateqoriyasına aiddir və özünün həlli üçün kompleks tədqiqatın (trasoloji, materialşünaslıq və s.) aparılmasını tələb edirlər. Lakin bu

məsələ çərçivəsində, iki və daha artıq obyektlərin bir artikul və ya modelə mənsubiyyətinin müəyyən edilməsindən ibarət olan hissə ayrıla bilər. Bu halda əmtəəşünaslıq-ekspertə verilən tapşırıq konkretləşdirilə bilər: başlıq və gödəkcə bir modelə aid deyilmi; təqdim olunan kəndir parçaları bir artikula aid deyilmi? Ekspertin müsbət cavabları sonradan aparılacaq kompleks tədqiqatın əsasını təşkil edəcəkdir. Bu kimi suallara verilən inkaredici cavablar eyniləşdirici tədqiqatın aparılmasını lazımsız edir.

Bəzən ekspert-əmtəəşünasın qarşısında hər hansısa əşyanı istehsal edən müəssisənin müəyyən edilməsinə dair məsələ qoyulur. Bu məsələ ekspert-əmtəəşünasın səlahiyyətlərinə aid deyildir, çünki həmin tədqiqat mövzusu istehsal prosesi və təşkili ilə bağlı bir məsələdir: bundan başqa, təqdim olunan məlumatın artikulu əsasında məmulatın mənşə mənbəyini təyin etmək mümkün deyildir, çünki eyni artikulu məmulatlar müxtəlif müəssisələr tərəfindən buraxılır.

Məmulatların istehsal üsullarına dair məsələlər (kustar və ya fabrik-zavod üsulu) də yalnız ekspert-əmtəəşünasın səlahiyyətlərinə aid deyildir. Ekspert-əmtəəşünas tədqiqat prosesində məmulatın keyfiyyətini, istehsalat əlamətlərini və onların məmulatın estetik və funksional xüsusiyyətlərinə təsiri dərəcəsini müəyyən edə bilər.

Ekspert-əmtəəşünasın səlahiyyəti hüdudlarında tədqiqata təqdim olunan məmulatların keyfiyyətli məhsullara irəli sürülən tələblərə, həmçinin normativ-

texniki sənədlərdə əks olunan tələblərə uyğunluğu (uyğunsuzluğu) haqqında məsələ həll edilə bilər. Zədələnmiş məmulatın bərpası üçün zəruri olan müxtəlif növ texniki təsirlərin (hərəkətlərin) həyata keçirilməsi imkanları və texnologiyaları haqqında məsələ məhkəmə-əmtəəşünaslıq ekspertizasının predmetinə aid deyildir. Ekspert-əmtəəşünas öz xüsusi biliklərinin köməyi ilə yalnız belə bir suala cavab verə bilər: zədələnmiş məmulatın keyfiyyət dəyişkənliyinə konkret amillər təsir edə bilərmi?

Kustar məmulatın da hazırlanma səviyyəsi kifayət qədər yüksək ola bilər. İstehsal üsullarının müəyyən edilməsi üçün materiallara, konstruksiyalara dair biliklər, modelin, onun müxtəlif detallarının təsviri və məmulatların hazırlanması texnologiyalarına dair biliklər tələb olunur. Deməli, bu məsələ istehsal müəssisələrində bu və ya digər məmulatların hazırlanma texnologiyaları sahəsində müəyyən biliklərə malik ekspert-texnoloqun səlahiyyətlərinə aiddir[1].

Qeyd olunanlarla yanaşı, ekspertlər qarşısında hüquqi və ya arayış (məlumat) xarakterli sualların qoyulması hallarına da təsadüf olunur. Məsələn, malın (məmulatın) korlanmasında konkret şəxslərin təqsirliyi haqqında məsələ. Bu tip sualların (məsələlərin), yəni müəyyən şəxsin təqsirli olub-olmaması, təqsirin forması (qəsd və ya ehtiyatsızlıq) həlli yolverilməzdir və məhkəmə eksperti tərəfindən həll edilməməlidir. Təqsir və təqsirlilik haqqında məsələlərin həlli müstəsna olaraq

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.40-41

məhkəmənin səlahiyyətinə aiddir[1].

Eynilə də təkrar ekspertizanın təyini zamanı ekspert qarşısında əvvəlki ekspertin rəyinin qiymətləndirilməsi haqqında sualın qoyulması da yolverilməzdir.

Yuxarıda qeyd edilən halları ümumiləşdirməklə, bütün ekspert əmtəəşünaslıq məsələlərini iki böyük qrupa bölmək olar:

1) Təsnifləşdirici:

- tədqiq edilən obyektlərin əmtəə xüsusiyyətlərinin əsas göstəricilərə (reyestrlə və s.) uyğunluğunun müəyyən edilməsi;

- tədqiq edilən obyektlərin əmtəə xüsusiyyətlərinin analoji məmulatların göstəriciləri ilə uyğunluğunun müəyyənləşdirilməsi;

- obyektlərin xüsusiyyətlərinin yarlık və etiketlərdə əks etdirilmiş, markalanma göstəriciləri ilə uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi;

- obyektlərin eyni növə (artikula) mənsubiyyətinin müəyyən edilməsi.

2) Diaqnostik:

- qüsurların mövcudluğunun və onların məmulatların keyfiyyətinə təsirinin müəyyən edilməsi;

- məmulatların keyfiyyət xüsusiyyətlərinin standart və etalon tələblərə uyğunluğunun (uyğunsuzluğunun)

---

[1] Товароведческая экспертиза (Исследование промышленных (непродовольственных товаров), в том числе с целью проведения их оценки. Российский Федеральный Центр Судебной Экспертизы при МЮ РФ, с.4

müəyyən edilməsi;

- malın qablaşdırılması, markalanması, saxlanması, daşınması, eləcə də qiymətləndirilməsi və yenidən qiymətləndirilməsi qaydalarının riayət olunması (riayət olunmaması) ilə bağlı faktiki məlumatların müəyyən edilməsi[1].

Təsnifləşdirici məsələlərin həlli zamanı ekspert əmətəəşünaslıq tədqiqatının obyekti qismində istənilən mal məmulatları (o cümlədən, istifadədə olmuş və istifadədən silinmiş məmulatlar) çıxış edə bilər. Belə ki, bu zaman bilavasitə tədqiqat obyekti tədqiqat prosesində müəyyən edilmiş kompleks əlamətlərin müəyyən təsnifedici xassələrə aid etməyə imkan verən və obyektin mal mənşəyini xarakterizə edən daimi və sabit əlamətlərin xassələr sistemidir.

Bununla belə, obyektdə malın mənşəyini müəyyən edən əlamətlərin mövcud olmaması, onu əmtəəşünaslıq ekspertizası çərçivəsində tədqiqi üçün yararsız edir. Belə ki, yandırılmış paltarın qalıqları xassələrinin (əlamətlərin) əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar olaraq, məhkəmə-əmtəəşünaslıq ekspertizalarının aparılması zamanı ekspert tədqiqatının obyekti ola bilməzlər. Belə hallarda, tədqiqat obyekti kriminalistik ekspertizaya aid olmaqla, vəzifəsi obyektin qrup və cins mənsubiyyətinin müəyyən edilməsindən ibarətdir. Məhkəmə-əmtəəşünaslıq ekspertizasının obyektləri qismində onların keyfiyyət və kəmiyyət miqdarını təşkil edən

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.40-41

əlamətlərə malik olan obyektlər hesab edilə bilər.

Sualın xarakterindən asılı olaraq, tədqiqatın obyekti kimi istifadədən silinmiş, lakin üzərində marka nişanələri qalan məmulatların hissələri də istifadə oluna bilər. Belə olan halda ekspert-əmtəəşünasın qarşısında markalanma göstəriciləri əsasında ekspertizaya təqdim olunmuş obyektin hansı məmulatın hissəsi olduğunun müəyyən edilməsi məsələsi qoyula bilər. Bu zaman tədqiqat obyekti kimi yalnız məmulatın qalıqları deyil, həm də qorunub saxlanmış markalanma da çıxış edir və ekspert tədqiqatının vəzifəsi – obyektə dair xassələrin markalanma göstəricilərinə, xüsusilə də, artikula uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsindən ibarətdir[1].

Diaqnostik tədqiqat zamanı məhkəmə-əmtəəşünaslıq ekspertizası obyektinin vəziyyəti morfoloji normativ parametrlərlə və ya normadan kənara çıxmalar, kəmiyyət nisbətləri və keyfiyyət dərəcəsinin təsdiq edilməsi ilə xarakterizə olunur. Məhsulun xassə göstəricilərinin və keyfiyyət ölçüsü kimi çıxış edən normativ xassələrin nisbəti, məhsulun təyinatı üzrə istifadəyə yararlığının müəyyən edilməsi məsələsini həll etməyə imkan verir.

Obyektin vəziyyətinin öyrənilməsi mal obyektlərinin mövcud olduğu, ətraf mühitlə qarşılıqlı əlaqə nəticəsində onların əlamət dəyişkənliyinin baş verdiyi konkret şəraitlərin tədqiqi ilə bağlıdır. Belə hallarda, mal

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.43-44

obyektlərinin ayrı-ayrı xassələrinin və ya keyfiyyətinin bütövlükdə dəyişkənliyə məruz qaldığı şəraitlər öyrənilir.

Malın dövriyyə və istehlakda olduğu şəraitlərin araşdırılması (daşınma, saxlanma) və bu proseslərin səciyyəvi hallarının normativlərlə müqayisə edilməsi ekspertə həmin şəraitlərin malın keyfiyyətinə təsiri imkanları barədə nəticə çıxartmağa imkan verir[1].

Ekspert-əmtəəşünaslıq məsələləri aşağıdakı qaydada sistemləşdirilə bilərlər:

**Məsələ 1.**Tədqiq olunan obyektlərin məlum xassələr kompleksi ilə xarakterizə olunan ümumqəbul olunmuş sinfə məxsusluğunun, qrup mənsubiyyətinin müəyyən edilməsi. Bu məsələni bir neçə alt məsələlərə bölmək mümkündür:

- obyektin əmtəə mənsubiyyətinin, onun təyinatının və tətbiq sahəsinin müəyyən edilməsi (o cümlədən, obyektin hissələrinə görə onun rekonstruksiyası metodu ilə);

- konkret obyektin və ya obyektlər məcmusunun eyni bir təsnifat qrupuna məxsusluğunun müəyyən edilməsi.

**Məsələ 2.** Obyektin faktiki vəziyyətinin müəyyən olunması.

Alt məsələlər qrupuna aşağıdakılar daxildir:

- defektlərin olması və onların keyfiyyətə təsiri;

- mövcud defektlər nəzərə alınmaqla keyfiyyətin aşağı düşmə dərəcəsi;

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.44

- obyektlərin xassələrinin baza (standartlara, etalona) obyektinin xassələrinə uyğun olub-olmaması;

- obyektin təyinatı üzrə istifadə üçün yararlılığı;

- obyektin faktiki xassələrinin markalanmada və ya müşaiyətedici məktublarda əks olunan uyğun məlumatlara uyğun olub-olmaması.

**Məsələ 3.** Qablaşdırma, markalanma, saxlama, daşınma, qəbul, sınaq və istismar üzrə əməliyyatların həyata keçirilməsi qaydalarına əməl olunub-olunmaması ilə bağlı faktiki məlumatların (şərtlərin, halların) müəyyən olunması.

Alt (xüsusi) məsələlərə qablaşdırmanın, markalanmanın, daşınma şərtlərinin, saxlanma rejiminin, qəbul qaydalarının, sınaqdan çıxarılma metodlarının, istismar şərtlərinin (şəraitlərinin), həmçinin proseslərin, əməliyyatların həyata keçirilməsi qaydalarına əməl olunmaması ilə baş vermiş hadisə arasında səbəb-nəticə əlaqəsinin müəyyən edilməsi daxildir.

**Məsələ 4.** Obyektin xassələrinin dəyişməsi mexanizminin müəyyən olunması:

- neqativ təsirin tipi;

- müəyyən şərtlərdə (şəraitlərdə) obyektin xassələrinin mümkün dəyişmələri;

- obyektin xassələrinin dəyişməsinin səbəbləri.

**Məsələ 5.** Məhkəmə-əmtəəşünaslıq ekspertizası obyektinin faktiki vəziyyəti nəzərə alınmaqla pərakəndə (bazar) qiymətinin müəyyən olunması.

**Məsələ 6.**Profilaktik xarakterli məsələlər[1].

Beləliklə, məhkəmə-əmtəəşünaslıq ekspertizasının predmeti, - iş üzrə sübutedici informasiyanı əldə etmək məqsədilə qüvvədə olan hüquq normaları çərçivəsində xüsusi biliklər vasitəsilə həyata keçirilən əmtəə mənşəli obyektlərin, onların ətraf mühitin hadisələri (müxtəlif təsirləri) ilə qarşılıqlı münasibəti və onlarla funksional əlaqəli olan proseslərin (qablaşdırma, daşınma, saxlama, istismar) tədqiqi nəticəsində müəyyən olunan faktiki məlumatlardır.

[1] Товароведческая экспертиза (Исследование промышленных (непродовольственных товаров), в том числе с целью проведения их оценки. Российский Федеральный Центр Судебной Экспертизы при МЮ РФ

## 2. MƏHKƏMƏ-ƏMTƏƏŞÜNASLIQ EKSPERTİZASININ OBYEKTLƏRİ VƏ TƏDQİQAT ÜÇÜN LAZIM OLAN MATERİALLAR

Məhkəmə-ekspert tədqiqatı qarşısında duran vəzifələrin həlli xeyli dərəcədə ekspertiza icraatına başlayarkən ekspertin sərəncamında olan ilkin informasiyadan – ekspertizaya təqdim olunan tədqiqat obyektlərindən asılıdır.

Fəlsəfi nöqteyi-nəzərdən «obyekt (lat.obcectum) dedikdə subyektin idrak fəaliyyətinin və digər fəaliyyətinin yönəldildiyi şey başa düşülür»[1]. M.İsrafilovun fikrincə, «obyekt – bizdən kənarda və şüurumuzdan asılı olmayaraq mövcud olan şeylərdir»[2].

Ekspertiza obyektləri, o cümlədən məhkəmə-iqtisad ekspertizasının obyektləri – iş materiallarında əks olunmuş və prosessual qanunvericiliklə nəzərdə tutulmuş informasiya mənbələridir.

E.R.Rossinskaya tədqiqat obyektlərini ekspert məsələlərinin həlli üçün zəruri olan informasiya daşıyan maddi obyektlər kimi müəyyən edir və məhkəmə ekspertizasının obyektlərinin əsasən maddi sübutlardan ibarət olduğunu qeyd edir[3]. Oxşar anlayış «Məhkəmə

---

[1] Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997, s.392

[2] İsrafilov M. Məntiq terminlərinin izahlı lüğəti. Bakı, 2007, s.267.

[3] Россинская Е.Р. Комментарий к Федеральному закону «О государственной судебно-экспертной деятельности в РФ. М., 2002, с.134-135.

ekspertizası ensiklopediyası»nda da vardır[1].

A.R.Şlyaxov, məhkəmə ekspertizasının obyektləri qismində müxtəlif faktların çıxış etdiyini, eyni zamanda onların həmişə cinayət və ya mülki işin konkret halları ilə bağlı olduğunu qeyd edərək göstərir ki, «məhkəmə ekspertizasının obyekti - cinayət-prosessual və mülki-prosessual qanunvericiliklə müəyyən olunmuş maddiləşmiş informasiya mənbələridir – cinayət və ya mülki işlərin materiallarıdır»[2].

Y.K.Orlov, məhkəmə ekspertizası obyektlərinin «ekspertiza predmetini təşkil edən faktiki məlumatların mənbəyi», «faktlar haqqında informasiya daşıyıcısı» kimi anlayışlarının hüquq ədəbiyyatında daha geniş yayıldığını göstərir. Müəllif hesab edir ki, məhkəmə ekspertizası obyektlərinə təkcə maddi predmetlər, hadisə şəraitinin əşya fraqmentləri deyil, həm də hadisələr, faktlar və digər ideal obyektlər aid edilməlidir. Onun fikrincə, ekspert tədqiqatına təkcə konkret predmetlər deyil, həm də müxtəlif proseslər (hadisələr, hərəkətlər) də məruz qala bilərlər ki, onların da tədqiqi əsasında ekspert, ekspertiza predmeti olan digər faktların idrakı həyata keçirir. Bununla belə, müəllif, ekspertiza obyektlərinin daha dar anlayışının məqsədəuyğun olduğunu da qeyd edir və yazır: «Ekspertizanın obyekti olaraq ekspertizanın predmetinə daxil olan faktların

---

[1]Энциклопедия судебной экспертизы//Под ред. Т.В.Аверьяновой, Е.Р.Россинской. М., 1999, с.265.
[2]Шляхов А.Р. Классификация судебных экспертиз. Волгоград, 1980, с.6.

müəyyən edilməsi məqsədilə üzərində ekspert tədqiqatının aparıldığı maddi aləmin predmetləri çıxış edir»[1].

Azərbaycan Respublikasının «Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Qanununda məhkəmə ekspertizası icraatı zamanı tədqiqat obyektləri qismində aşağıdakılar müəyyən edilmişdir: maddi sübutlar; sənədlər; predmetlər; heyvanlar; meyit və ya onun hissələri; müqayisəli tədqiqat üçün nümunələr; məhkəmə ekspertizasının aparıldığı işin materialları.

Qeyd olunanlar əsasında söyləyə bilərik ki, məhkəmə-əmtəəşünaslıq ekspertizasının obyekti (obyektləri) – məhkəmə-əmtəəşünaslıq ekspertizasının vəzifələrinə (suallar dairəsinə) daxil olan faktların təyini məqsədilə ekspert tədqiqatına məruz qalan maddi aləmin predmetləri – informasiya mənbələri kimi müəyyən oluna bilər. Prosesə cəlb olunmaqla təqdim olunmuş materiallar maddi və ya yazılı sübutlar statusunu əldə edirlər.

Bu zaman yazılı sübutlar qismində əsasən sənədlər çıxış edir.

C.H.Mövsümov düzgün olaraq göstərir ki, sübut əhəmiyyəti daşıması üçün sənədlər bir sıra göstəricilərə, yəni əlamətlərə malik olmalıdırlar: 1)sənədin əks etdirdiyi məlumatın daşıyıcısı məlum olmalıdır və həmin daşıyıcıları yoxlamaq mümkün olmalıdır; 2)sənədlər idarələrdən, müəssisələrdən, təşkilatlardan və ya ayrı-ayrı şəxslərdən daxil olduqda həmin sənədlərdəki

---

[1]Орлов Ю.К. Заключение эксперта и его оценка (по уголовным делам). М., 1995, с.11-12

məlumatlar müvafiq vəzifə səlahiyyətləri çərçivəsində, sənəd vətəndaşdan daxil olduqda müəllifin faktiki məlumatlılığı çərçivəsində ifadə edilməli və təsdiq olunmalıdır; 3)faktlar (hallar) haqqında sənəddə əks olunmuş məlumatlar ədalət mühakiməsi üçün əhəmiyyət kəsb etməlidir[1].

Azərbaycan Respublikası CPM-nin 135.1-ci maddəsinə görə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafik və digər işarə formasında özündə əks etdirən kağız, elektron və ya digər daşıyıcılar sənəd hesab olunur.

AR MPM-nin 89.1-ci maddəsinə görə yazılı sübutlar, yeni sənədlər - iş üçün əhəmiyyətli hallar barədə məlumat verən və notariat qaydasında təsdiq olunmuş sənədlər, aktlar, müqavilələr, arayışlar, işgüzar yazışmalar və sair sənəd və materiallardır.

Eyni zamanda MPM-nin 89.2-ci maddəsində xüsusi olaraq qeyd edilir ki, faks, elektron və ya digər rabitə vasitəsi ilə, yaxud sair üsulla əldə edilmiş materiallar məhkəmə tərəfindən o şərtlə yazılı sübut kimi qəbul edilə bilər ki, həmin sənədlərin həqiqiliyini müəyyən etmək mümkün olsun.

**Məhkəmə–əmtəəşünaslıq ekspertizasının əsas obyektləri olaraq aşağıdakılar çıxış edir:**

- sənaye malları (plastik, kimyəvi, silikat, metal, elektrik, inşaat, mebel, toxunma, tikili, trikotaj, ayaqqabı, xəz-dəri, qalantereya, ətriyyat, mədəni, zərgərlik və sair

[1]Azərbaycan Respublikası CPM-nin Kommentariyası. 1-ci cild. Bakı, 2003, s.25.

məmulatları), həmçinin istehlak xassəsinə malik, lakin pərakəndə qiyməti olmayan yarımfabrikatlar;

- ərzaq malları, qənnadı, ət-balıq, taxıl-un, süd, piy, meyvə-tərəvəz və sair məhsullar;
- hesab-faktura, yol-nəqliyyat qaiməsi, qablaşdırma nişanı, keyfiyyət sertifikatları və ya vəsiqələri;
- nümunə götürmə aktları və laborator analizlərin nəticələri;
- mal qəbulu aktları və malın miqdar və keyfiyyət göstəricilərini özündə əks etdirən, onların qablaşdırılması, daşınması, saxlanması və satışı şəraitini xarakterizə edən digər sənədlər;
- qab və taralar;
- malların saxlanması, qablaşdırılması, daşınması və satışının sanitar-gigiyena normalarına uyğun olması barədə sənədlər;
- tikintidə nəzarət–ölçmə aktları, həmçinin onun təşkilini xarakterizə edən sənədlər;
- dəymiş ziyanın məbləğini müəyyən etmək üçün baxış protokolları, fotoşəkillər, videoyazılar;
- yol-nəqliyyat qəzası zamanı tərtib edilmiş, zədələnmiş hissələri özündə əks etdirən avtomobillərə baxış protokolu və s.[1].

Eyni zamanda, obyektin əmtəə mənsubiyyətini (mənşəyini) «müəyyən edən əlamətlərin olmaması,

---

[1] Məhkəmə ekspertizası qarşısında qoyulan sualların nümunəvi siyahısı. Bakı, 2005, s.140-141; Məhkəmə ekspertizası. Sxemlər toplusu (Dərs vəsaiti). Bakı, 2007, s.203.

onun məhkəmə-əmtəəşünaslıq ekspertizası obyektlərinə aid edilə bilməməsini göstərir (məsələn, yandırılmış paltarın qalıqları məmulatın konstruktiv xüsusiyyətləri, onun modeli kimi xassələrin idrakına, onun konkret əmtəə qrupuna aid edilməsinə imkan vermir). Belə hallarda tədqiqat obyekti daha çox kriminalistik ekspertizalara aiddir ki, bu növ ekspertizaların vəzifələrindən biri obyektin qrup və cins mənsubiyyətinin müəyyən edilməsidir[1].

Məhkəmə-əmtəəşünaslıq ekspertizalarının icraatı zamanı tədqiqat obyekti qismində mal mənşəli məmulatlar, nümunələr, eləcə də tədqiq edilən obyektlərin mal xüsusiyyətləri və istehlak xassələrinin (qablaşdırma, markalanma, saxlanma, daşınma, istismar şərtləri) dəyişməsi hallarına dair digər məlumatlar əks etdirilmiş cinayət, mülki və inzibati-iqtisad işlərinin materialları çıxış edir. Zəruri hallarda, ekspertlərə məmulatlarla birlikdə müqayisəli tədqiqat üçün nümunələr də təqdim olunur.

Məmulatlarla yanaşı, məhkəmə-əmtəəşünaslıq ekspertizalarının icraatı zamanı ilkin məlumatlar qismində, bilavasitə məmulatın üzərinə vurulan və ya yarlık, etiketin üzərində olan məmulatın markası də tədqiq olunur. Markalanma qismində istehsalçı barədə məlumat daşıyan mətn, şərti işarə, rəsm işi, malın

[1] Товароведческая экспертиза (Исследование промышленных (непродовольственных товаров), в том числе с целью проведения их оценки. Российский Федеральный Центр Судебной Экспертизы при МЮ РФ, с.6

keyfiyyətini xarakterizə edən rəqəmsal və hərfi göstəricilər, eləcə də məmulatın saxlanması və ya yükə münasibət şərtlərini göstərən müxtəlif manipulyasiya işarələri çıxış edə bilərlər.

Məhkəmə-əmtəəşünaslıq ekspertizası icraatı zamanı qablaşdırmanın tədqiqi böyük əhəmiyyət daşıyır. Qablaşdırma – məmulatı ətraf mühitin təsirlərindən, zədələnmə və itkilərdən müdafiəsini təmin edən və dövriyyə prosesini asanlaşdıran vasitələr və ya vasitələr kompleksidir. Qablaşdırmanın (konstruksiyasına, görünüşünə, ölçüsünə, hazırlandığı materialına görə) məmulatın ətraf mühitin təsirlərindən və zədələnmələrdən müdafiəsini nə dərəcə təmin etmək iqtidarında olmasından məmulatların zahiri görkəmi və saxlanma dərəcəsi asılıdır.

Bəzi hallarda tədqiqata təqdim olunmuş təkcə qablaşdırma (tədqiqat obyekti ilə məcmu halda) ekspertə məhkəməni və istintaqı maraqlandıran hadisələr haqqında əsaslı nəticə çıxarmağa imkan verir.

Məhkəmə-əmtəəşünaslıq ekspertizası icraatı təcrübəsi göstərir ki, cinayət işinin başlanması və ya cinayət, mülki, iqtisad-inzibati işlər üzrə məhkəmə baxışı anında bəzi hallarda ekspertin sərəncamında tədqiqatın aparılması üçün təqdim olunması zəruri olan hazır məhsullar, məmulatlar, qablaşdırma, nümunələr olmur. Əmtəə ilə baş verən bütün əməliyyatların, həmçinin bilavasitə öyrənilməsi mümkün deyildir, çünki bu əməliyyatlar keçmişdə baş vermişdir. Belə hallarda ekspert üçün informasiyanın yeganə mənbəyi qismində

obyektin vəziyyəti və onunla bağlı həyata keçirilən əməliyyatlar barədə məlumatlar daşıyan sənədlər çıxış edir ki, bu sənədlər də tədqiq olunan obyekt haqqında əlavə informasiya verə bilər.

Bir sözlə, ekspertizanın təyini zamanı hər-hansı səbəblərdən ekspertin sərəncamına bilavasitə məmulatı, nümunəni (probı), qablaşdırmanı və s. təqdim etmək imkanı olmadığı hallarda, həmçinin məmulatla bilavasitə baş verən proseslərin tədqiqi mümkün olmadıqda (onların keçmişdə baş verməsi ilə bağlı), ekspert üçün yeganə informasiya mənbəyi qismində məmulatın əmtəə xarakteristikaları, onun faktiki vəziyyəti və onunla baş verən hallar haqqında məlumatların əks olunduğu sənədlər çıxış edir.

Beləliklə, obyektlərdən (məmulatlardan), onların markalanma əlamətlərindən və nümunələrdən başqa, zəruri hallarda, ekspert-əmtəəşünasa mal barəsində əlavə məlumatlar əldə etməyə imkan verən və malın vəziyyətini, onunla bağlı cərəyan edən müxtəlif prosesləri, əmtəə əməliyyatlarının aparılmasını (qəbulu, satışı) əks etdirən sənədlər də təqdim olunmalıdır[1].

Bu sənədlərə aiddir:

- məmulatların mənşə xüsusiyyətlərinə dair informasiya daşıyan sənədlər (sertifikatlar, keyfiyyət haqqında vəsiqələr, texniki pasportlar, nişanlar);

- malın keyfiyyətini və hazır məhsulun anbara təhvil verilməzdən və alıcıya göndərilməzdən qabaq həmin malın qablaşdırma xüsusiyyətlərini xarakterizə edən

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.42

mal-müşayiət sənədləri (spesifikasiyalar, hesab-fakturalar, mal-nəqliyyat qaimələri, qablaşdırma vərəqələri və s.);

- daşınma şərtləri və müddətinə dair məlumatlar əks etdirilmiş mal-nəqliyyat (yükləmə) sənədləri (yükün qəbulu haqqında qəbz, dəmir yolu qaiməsi, kommersiya aktı);

- qəbul zamanı malın keyfiyyət xüsusiyyətlərini əks etdirən qəbul sənədləri (malın qəbulu və sınaq metodları haqqında məlumatlar – çeşidləşmə aktları, ekspertiza aktları, laboratoriya tədqiqatları aktları, qüsur jurnalları, malın çeşidlərə ayrılması və qəbulu jurnalları, təhvil-təslim qaimələri, qiymətləndirmə və yenidən qiymətləndirmə aktları, mallara dair pasportlar, sanitar-epidemiologiya orqanlarının aktları və s.);

- malın saxlanma şərtlərinə dair məlumatları əks etdirən anbar sənədləri;

- iddia materialları;

- prosessual sənədlər (baxış protokolu, ekspertlərin rəyləri, müxtəlif arayışlar, ərizələr)[1].

Sənədlər özünəməxsus informasiya daşıyıcılarıdır və onların köməyi ilə ekspert tədqiqat prosesində müəyyən zaman aralığında mövcud olan obyektin obrazını qura bilər. Qeyd olunan informasiya məmulatların keyfiyyət xarakteristikalarının və məmulatla baş verən proseslərin normativ göstəricilərə uyğunluğu, məmulatların keyfiyyət dəyişmələrinin

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.42-43

mümkün səbəbləri, onun dəyişmə dərəcəsi və bir çox digər məsələlər (ekspert qarşısında qoyulmuş sualdan asılı olaraq) haqqında nəticənin tərtibi üçün istifadə oluna bilər.

Bu zaman ekspertiza icraatı nəticəsində yalnız təqdim olunan sənədlərdə şərh olunmuş məlumatların öyrənilməsi əsasında keçirilməsinin mümkünlüyü bu sənədlərin tədqiqat üçün kifayətliyi və yararlılığı ilə müəyyən olunur.

Maddi sübutlar ekspertizaya göndərilərkən müvafiq standart və texniki şərtlərdə nəzərdə tutulan orta nümunə götürülməsi qaydalarına riayət etmək lazımdır.

Müqayisə üçün nəzərdə tutulmuş maddi sübutlar elə qablaşdırılıb möhürlənməlidir ki, onların dəyişdirilməsi və xarab olması mümkün olmasın[1].

[1] Məhkəmə ekspertizası qarşısında qoyulan sualların nümunəvi siyahısı. Bakı, 2005, s.142

# 3. MƏHKƏMƏ-ƏMTƏƏŞÜNASLIQ EKSPERTİZASININ METODİKİ ƏSASLARI VƏ METODOLOGİYASI

Ekspert tədqiqatı prosesi – ekspertiza icraatı qarşısında qoyulan müəyyən məsələlər (suallar) sisteminin həlli kimi təsvir oluna bilər ki, bu sistem də ümumi məsələ və ümuminin həllini təmin edən xüsusi məsələlərdən (altsistem təşkil edən altməsələlərdən) ibarət olmalıdır. Ümumi məsələni müstəntiq və ya məhkəmə, xüsusini isə ekspert formulə edir. Xüsusi məsələ yalnız ümumi məsələnin həllinə kömək edir.

Məhkəmə ekspertizası, o cümlədən məhkəmə-əmtəəşünaslıq ekspertizası məsələsinin (ekspertiza qarşısında qoyulan sualların) həlli – məsələnin idrakı; işin materiallarının öyrənilməsi; ekspert fərziyyələrinin irəli sürülməsi və yoxlanılması; alt məsələlərin formulə edilməsi; onların həlli metodlarının vasitələrinin və üsullarının seçilməsi; tədqiqatın planlaşdırılması və aparılması; aralıq və ümumi nəticələrin qiymətləndirilməsi və bu əsasda son nəticənin (nəticələrin) formulə edilməsi; prosessual sənəd kimi ekspert rəyinin tərtibi kimi bir sıra mərhələlərdən ibarət olan dinamik prosesdir.

Ekspert tərəfindən həll edilən məsələlərin obyekti və xarakterindən asılı olaraq, məhkəmə-əmtəəşünaslıq ekspertizası icraatında tədqiqatın mötəbərliyini və tamlığını təmin edən ümumi və xüsusi metodlardan, o cümlədən materialşünaslıqda, sənayedə, elm və

texnikanın digər sahələrində işlənib hazırlanmış sənədlərdə, standartlarda (DÖST), texniki şərtlərdə (TŞ) və digər normativ sənədlərdə ətraflı təsvir edilmiş metodikalardan istifadə olunur.

Ekspert əmtəəşünaslıq məsələsinin həllində əsas şərt qarşıya qoyulan vəzifənin həlli üçün praktiki əhəmiyyət daşımaqla, obyektin əlamət və xüsusiyyətlərinin tədqiqidir.

Bu səbəbdən də, məhkəmə-əmtəəşünaslıq ekspertizası vəzifələrinin həlli zamanı tətbiq olunan tədqiqat metodikası[1] obyektlərin xassə əlamətlərinin geniş və ətraflı öyrənilməsi tələblərinə cavab verməlidir. Həmin amillərin natamam öyrənilməsi, obyektlərin xassələrində baş verən dəyişikliklərin xarakterinin əsassız qiymətləndirilməsi, son nəticədə, ekspertlərdə yalnış nəticə formalaşdıra bilər.

Məhkəmə-əmtəəşünaslıq ekspertizası obyektinin istehlak xüsusiyyətlərinin öyrənilməsi prosesi aşağıdakı mərhələlərdən ibarətdir: analitik, müqayisəli və sintez (tədqiqat nəticələrinin qiymətləndirilməsi).

Analitik mərhələdə məmulatların istehlak xassələrinin təhlili aparılır. Bu zaman əldə olunan təsvir və hesablama nəticələri müqayisə mərhələsində əsas nəticələrlə tutuşdurulur. Müqayisə üçün müxtəlif normativ sənədlərdə olan xassə göstəricilərinin nomenklaturasından istifadə olunur.

Bu göstəricilərin say miqdarının müəyyən edilməsi

---

[1] Ekspert metodikası – ekspert məsələsinin həllinə istiqamətlənmiş fəaliyyət proqramıdır.

üçün ölçmə, qeydiyyat, hesablama, orqanoleptik tədqiqat metodlarından isitfadə olunur.

Orqanoleptik metod mal əlamətlərinin hissiyyət orqanları ilə mənimsənilməsi analizinə əsaslanmaqla, məmulatların rənginə, dadına, xarici görünüşünə görə, malın keyfiyyətinin müəyyən edilməsi üçün istifadə olunur. Bu metod olduqca sadədir, xüsusi avadanlığın, cihazların istifadəsini tələb etmir; tədqiqat istənilən şəraitdə tez həyata keçirilir; obyekt tədqiqat zamanı zədələnmir. Lakin bu metod əhəmiyyətli çatışmazlıqlara da malikdir: tədqiqat prosesində bu metodun köməyi ilə əldə olunan nəticələr ekspertin təcrübəsindən, onun fərdi qavrama qabiliyyətindən, onun sağlamlıq durumundan, mənəvi-psixoloji vəziyyəti və xüsusiyyətlərindən asılı olmaq, əksər hallarda, subyektiv xarakterə malik olurlar.

Ölçmə, laborator metodlar, texniki hesablama vasitələrinin istifadəsini tələb etməklə, materialın təbiətinin müəyyən edilməsi ilə bağlı olan sadə xassə göstəricilərinin say miqdarını birbaşa əldə etməyə imkan verir və özündə fiziki-mexaniki, kimyəvi, mikrobioloji, mikroskopik və digər tədqiqat metodlarını cəmləşdirirlər.

Fiziki-mexaniki metodlar materialların fiziki (sıxlıq, xüsusi çəki, kütlə, bir kvadrat metrin kütləsi), termik (istilik tutumu, termik davamlılıq və genişləndirmə, materialın aqreqat vəziyyətinin dəyişməsi), elektrik, optik, sorbsiya xüsusiyyətlərinin tədqiqi üçün məhkəmə-əmtəəşünaslıq ekspertizaları zamanı tətbiq olunur.

Kimyəvi metodlar malların kimyəvi xassələrinin

(tərkibinin müəyyən edilməsi, müxtəlif qarışıqların tutumu, rəngin davamlılığı, materialın digər qələvi və ya turşularla qarşılıqlı əlaqəyə girmək qabiliyyəti və s.) öyrənilməsi üçün tətbiq olunur.

Laborator metodlar daha dəqiq nəticələr verir, əldə olunan miqdar nəticələri isə normativ sənədlərin nəzarət göstəriciləri ilə asanlıqla tutuşdurulur. Bu metodlar məhkəmə-əmtəəşünaslıq ekspertizalarının spesifik tələblərini nəzərə almaqla, tətbiq olunur. Sxem üzrə, ilk növbədə, obyektiv tamlığını pozmayan metodlar tətbiq olunur.

Qeydiyyat metodu əlamətlərin miqdarının hesablanmasına əsaslanır (misal üçün, parçanın sıxlıq göstəricisi 1 kv.sm sahədə sapların sayının hesablanması yolu ilə müəyyənləşdirilir).

Hesablama metodu qarşılıqlı əlaqələr əsasında, ölçmə metodu ilə aşkarlanmış parametrlərin tətbiqi ilə keyfiyyət (xüsusiyyət) göstəricisinin hesablanmasına əsaslanır. Misal üçün, belə üsulla ipliyin metrik nömrələri hesablanır (parçanın xətti sıxlığı)[1].

Ölçülmənin nəticələri həm fiziki şkalalar («ölçülən» xassələr üçün), həm də təhlil edilən əlamətin dəyişməsini xarakterizə edən kəmiyyət qradasiyaları («ölçülməyən» xassələr üçün) şəklində ifadə oluna bilərlər.

Tədqiqatın nəticələri (xassələrin göstəriciləri) analoji baza (normativ, etalon) xarakteristikaları ilə tutuşdurulur və məmulatların xüsusiyyətlərinin baza

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.45-46

xüsusiyyətlərinə uyğunluğu (uyğunsuzluğu) müəyyən edilir.

Əldə olunan nəticələrin qiymətləndirilməsi, analiz ilə yanaşı, tədqiqatın növbəti zəruri mərhələsidir. Bu mərhələ müqayisəli analizin nəticələrinə əsaslanmaqla, keyfiyyət dərəcəsinin müəyyən edilməsi prosesi kimi çıxış edir. İstehlak xüsusiyyətlərinin qiymətləndirilməsi ayrı-ayrı göstəricilərlə məmulatın bütövlükdə keyfiyyəti arasındakı funksional-kəmiyyət əlaqələrinin aşkar edilməsindən, yəni kompleks keyfiyyət göstəricisinin müəyyən edilməsindən ibarətdir.

Məmulatın keyfiyyətinin kompleks göstəricisi onun bütün istehlak xüsusiyyətlərinin məcmuyuna aid olmaqla, vahid göstəricilərin qiymətləndirilməsi yolu ilə əldə edilir. Bu göstərici, bir qayda olaraq, sonsuz ədədlər sistemi ilə ifadə olunur (misal üçün, məmulatın təyinat üzrə istifadəyə yararlığı məsələsinin həlli).

Qiymətləndirmə mərhələsi tədqiqat prosesi ilə yekunlaşır. Əgər analiz mərhələsində ekspertlər məmulatın keyfiyyətini xassələrə və onlar arasında mövcud olan əlaqələrə bölmüşlərsə, onda burada ayrı-ayrı göstəricilərin qiymətləndirilməsi ümumiləşdirilir[1].

Məmulatın faktiki vəziyyətinin müəyyən edilməsi zamanı tədqiqatın məqsədi kimi qüsur əlamətlərinin aşkar edilməsi və onların keyfiyyətə təsiri baxımından məcmuyunun qiymətləndirilməsi çıxış edir. Bu zaman, ekspert tədqiqatı zamanı yaranan ən mürəkkəb problemlərdən biri istismarda olan məmulatın

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.47

keyfiyyətinin müəyyən edilməsindən ibarətdir. Ekspert əmtəəşünaslıq tədqiqatının vəzifəsi istismar (köhnəlmə) əlamətlərinin məmulatın keyfiyyətinin aşağı düşməsinə təsirinin və təyinatı üzrə gələcək istifadəsi üçün yararlığının müəyyən edilməsi məqsədilə istismar əlamətlərinin aşkar edilməsi və qiymətləndirilməsindən ibarətdir. Məsələlərin mürəkkəbliyi elmi işlənmiş tədqiqat metodikalarının olmaması ilə izah olunur. Əgər məmulatın dövlət standartlarının tələblərinə uyğunluğu və onun sortuna dair məsələlərin həlli zamanı ekspert, normativ sənədlərin tələblərini rəhbər tutmaqla, tədqiqat aparırsa və öz nəticələrində onun müddəalarına əsaslanırsa, onda qeyd olunan məsələnin həlli zamanı o, yalnız öz təcrübəsinə və intuisiyasına, eləcə də eksperimental yolla əldə olunan göstəricilərə arxalanır.

Əmtəəşünaslıq ekspertizasının müasir imkanları həll edilən məsələlər dairəsini genişləndirməklə, nisbətən yeni tədqiqat metodlarının və texniki vasitələrin tətbiqi hesabına yeni xüsusi metodikaların yaradılması vasitəsilə genişləndirilə bilər[1].

---

[1] Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007, s.47-48

# 4. MƏHKƏMƏ-ƏMTƏƏŞÜNASLIQ EKSPERTİZALARININ İCRAATI ZAMANI MALLARIN (ƏMTƏƏNİN) BAZAR QİYMƏTİNİN MÜƏYYƏN EDİLMƏSİ METODİKASI

Bütövlükdə ekspert tədqiqatı prosesinin təkmilləşdirilməsi, ekspertiza icraatının ayrı-ayrı mərhələlərində məsələlərin həlli üçün kifayətedici əsas verən tədqiqatın tamlığının təmini, konkret ekspert məsələsinin həlli, ekspert nəticələrinin əsaslandırılması zamanı ekspertin hərəkətlərinin məntiqliyinin və ardıcıllığının təmini, ekspert rəylərinin mötəbərliyinin təmini məqsədilə Məhkəmə Ekspertizası Mərkəzində məhkəmə-əmtəəşünaslıq ekspertizalarının icraatı zamanı malların (əmtəənin) bazar qiymətinin (dəyərinin) müəyyən edilməsi metodikası işlənib hazırlanmışdır.

Sistemli-struktur yanaşma əsasında malın bazar dəyərinin müəyyən edilməsi məqsədilə ekspertizaların icraatı zamanı ekspert idrakının qnoseoloji mahiyyəti açılmış, ekspert tədqiqatı prosesi, onun mərhələləri və mərhələlər arasındakı əlaqələr nəzərdən keçirilmiş; əmtəəşünaslıq ekspertizasının predmeti və obyektinin anlayışı verilmiş, ekspert məsələləri dairəsi müəyyən olunmuşdur[1].

*4.1. Əmtəənin bazar qiymətinin müəyyən edilməsi*

---

[1] Методика определения рыночной стоимости товаров при производстве товароведческих экспертиз в экспертно-криминалистических службах ФТС России. М., 2004, с.2

*məqsədilə ekspert-əmtəəşünaslıq tədqiqatı proqramı.*

Məlum olduğu kimi, ekspert tədqiqatı metodikası - ekspertiza predmetinə aid olan faktların təyini üçün ekspertiza obyektlərinin öyrənilməsi zamanı ardıcıl olaraq tətbiq olunan metodlar, üsullar və texniki vasitələr sistemidir.

Ekspertin fərdi-tədqiqat fəaliyyətinin təkcə strukturunun deyil, həm də dinamikasının determinasiyasında metodika böyük əhəmiyyət kəsb edir. Çünki məhz ekspertiza icraatının metodikası mürəkkəb və çoxsəviyyəli xarakter daşımaqla yanaşı, həm də müəyyən nizamlama və tənzimləmə tələb edir.

Əmtəənin bazar qiymətinin müəyyən edilməsi məqsədilə ekspert-əmtəəşünaslıq tədqiqatının aparılması metodikası tədqiqatın müxtəlif mərhələlərində müxtəlif metodki yanaşmalardan ibarətdir.

Hər bir mərhələdə obyektlərin müəyyən xassələri tədqiq edilir, uyğun texniki vasitələrdən istifadə olunur və konkret altməsələlər həll edilir.

Burada məsələnin (alt məsələnin) həllinin əsas şərti obyektin bütün xassələrinin deyil, yalnız bu məsələnin həlli üçün əhəmiyyət kəsb edən xassələrin tədqiqindən ibarətdir.

Tədqiqatın *birinci mərhələsində* tədqiq olunan obyektlərin əmtəə xassələrinin öyrənilməsi də daxil olmaqla əmtəə mənsubiyyətinin təyini ilə bağlı məsələlər qrupu həll olunur. Bu məsələlərin həlli aşağıdakıları müəyyən etməyə imkan verir:

- tədqiq olunan obyektin (məhsulun, məmulatın,

malın) təsnifatı üzrə dövlət standartlarına görə məlum kompleks xassələrə malik ümumqəbul olunmuş sinfə məxsusluğu;

- ayrıca götürülmüş konkret obyektin və ya obyektlər məcmusunun eyni bir əmtəə qrupuna (növünə, modelinə, markasına) mənsubiyyəti;

- tədqiq olunan obyektin əmtəə xassələrinin müqavilədəki məlumatlara uyğunluğu (uyğunsuzluğu);

- tədqiq olunan obyektin əmtəə xassələrinin markalanmada göstərilənlərə uyğunluğu (uyğunsuzluğu).

Obyektlərin əmtəə mənsubiyyətinin müəyyən edilməsi üçün elm tərəfindən işlənib hazırlanmış məlumatlardan istifadə edilir ki, onlarda da kəmiyyət-keyfiyyət xarakteristikaları əvvəlcədən müəyyən edilmişdir. Bu da eyniləşdirici tədqiqatlar apararaq öyrənilən obyekti müəyyən təsnifat vahidinə aid etməyə, təsnifat meyarlarına uyğun olaraq onları digərlərindən fərqləndirməyə imkan verir.

Tədqiqatın *ikinci mərhələsində* obyektin keyfiyyət dərəcəsinin və faktiki vəziyyətinin müəyyən edilməsi ilə bağlı məsələlər qrupu həll edilir. Bu zaman aşağıdakılar müəyyən edilir:

- tədqiq olunan obyektin faktiki xarakteristikalarının baza (normativ, nümunə-etalon) məlumatlarına uyğunluğu (uyğunsuzluğu);

- tədqiq olunan obyektin faktiki xarakteristikalarının (xammal, tərkib, konstruksiyalar, tətbiq olunan materiallar, model, texniki parametrlər, ölçü əlamətləri və s.)

əmtəəmüşayiətedici sənədlərdə, qəbul sənədlərində və digər sənədlərdə əks olunan analoji məlumatlara uyğun olub-olmaması;

- fiziki, mənəvi aşınmanın olması ilə bağlı məhsulun keyfiyyət dəyişməsinin dərəcəsi və mahiyyəti;

- qablaşdırma, markalanma, daşınma, saxlanma və istismar qaydalarına əməl olunması (olunmaması), obyektlərin xassələrinin dəyişməsi mexanizmi və səbəbləri ilə bağlı faktiki məlumatlar.

Tədqiq edilən obyektin vəziyyətini əks etdirən tam və elmi əsaslı nəticənin alınması üçün ekspert tərəfindən konkret əmtəə (mal) qrupunun tədqiqi zamanı istifadə olunan texniki vasitələrin düzgün tətbiqi böyük əhəmiyyət kəsb edir.

Saxlanma yerində əmtəəyə baxışın keçirilməsi zamanı qeyd olunan faktorlar müəyyən olunmuş nümunəli əmlakın (nəqliyyat vasitəsinin) baxış aktında əks olunur.

*Üçüncü mərhələdə* konkret regionda konkret zaman dövründə tədqiq olunan əmtəə bazarının analizi həyata keçirilir. Bu mərhələdə ekspert tədqiqatına aşağıdakılar daxildir:

- müxtəlif legitim informasiya mənbələrində əks olunan qiymətlə bağlı məlumatların analizi;

- bazar şəraitində bir sıra faktiki sövdələşmələr məcmusunda təsbit olunan qiymətlərin analizi;

- tədqiq olunan əmtəənin qiyməti haqqında informasiya mənbələrinin olmadığı (və ya əlçatan olmadığı) halda analoji əmtəənin marketinq tədqiqatı.

Analoqun (modelin, etalonun) seçilməsi yuxarıda qeyd olunan sxem üzrə onun xarakteristikalarının öyrənilməsi yolu ilə həyata keçirilir. Analoq seçilərkən analoqun xassələrinin tədqiq olunan obyektin xassələrinin maksimal uyğunluğu nəzərə alınır. Bu zaman əmtəənin və analoqun təkcə funksional təyinatı və faktiki istehlak xassələri deyil, həm də istehsal ölkəsi, rəqabətqabiliyyətlilik, onların bazarda dövriyyəsi şəraiti və sair kimi amillər nəzərə alınır[1].

Aparılmış tədqiqatlar nəticəsində əmtəənin konkret regionda və verilmiş zaman dövründə orta bazar qiyməti müəyyən olunur. Gömrük rəsmiləşdirilməsi prosesində olan malın bazar qiymətinin müəyyən edilməsi məsələsi üzrə ekspert tədqiqatlarının aparılması zamanı malı ekspertizaya təqdim edən gömrük orqanının qərarında göstərilən və ya ekspertiza icraatı tarixinə uyğun bazar qiyməti müəyyən olunur.

Tədqiqata təqdim olunmuş əmlakın qiyməti onun faktiki vəziyyəti (defektlərin, o cümlədən xarici görünüşün və qablaşdırmanın defektlərinin olub-olmaması, müşayiətedici və texniki sənəd, komplektlilik və sair hesaba alınır. Belə ki, obyektdə defektlərin olması onun keyfiyyətini və dəyərini aşağı salır), sayı, habelə onun qiymətinə təsir edən digər amillər nəzərə alınır.

Bəzi hallarda, məsələn, hüquqpozuntusunun ekspertizanın aparıldığı tarixdən xeyli əvvəl baş verdiyi

---

[1] Методика определения рыночной стоимости товаров при производстве товароведческих экспертиз в экспертно-криминалистических службах ФТС России. М., 2004, с.8

hallarda, ekspert malın qiymətini aşağıdakı üsullardan istifadə etməklə müəyyən edə bilər:

1. Ekspertizanın aparılması tarixinə əmlakın qiymətinin sabit xarici valyutada müəyyən edilməsi (məsələn, ABŞ dolları) və onun hüquq pozuntusunun baş verdiyi tarixə Mərkəzi Bankın müəyyən etdiyi manatın kursu üzrə yenidən hesablanmasının aparılması.

2. Ekspertizanın aparıldığı tarix üzrə əmtəənin qiymətini Azərbaycan manatında müəyyən etmək və onu hüquqpozuntusunun baş verdiyi tarixdən ekspertiza icraatı tarixinə qədər olan dövr ərzində inflyasiya indeksi nəzərə alınmaqla korrektə etməklə hesablanması. İnflyasiya indeksinin rəsmi səviyyəsi dövlət strukturlarının maliyyə və iqtisadi xarakterli dövri nəşrlərində verilir.

Eyni zamanda göstərilən üsulların sürətli mənəvi aşınma meylləri ilə xarakterizə olunan, istifadə olunmuş və məhdud yararlılıq müddətinə malik əmlaka aidiyyatda tətbiq oluna bilməməsi də qeyd olunmalıdır.

*4.2.Əmtəənin azad bazar qiymətinin müəyyən edilməsi zamanı ekspert tərəfindən istifadə olunan informasiya mənbələri.*

Əmtəəşünaslıq tədqiqatları prosesində əmtəənin azad bazar qiymətinin müəyyən edilməsi zamanı aşağıdakı informasiya mənbələrindən istifadə oluna bilər:

- nəşr olunanlar – kataloqlar, qiymətlərin verildiyi

məcmuələr, preyskurantlar, prays-vərəqələr, prospektlər, birja məlumatları və s.

- nəşr olunmayanlar – xüsusi sorğular əsasında ticarət nümayəndəliklərinin, firmaların, əmtəə istehsalçılarının cavabları və sairə;

- müəyyən metodikalar üzrə hesablama yolu ilə əmtəənin bazar qiymətini müəyyən etməyə imkan verən normativ sənədlər.

Həmçinin, ümumi istifadə üçün nəzərdə tutulmuş İnternet şəbəkəsnin rəsmi saytlarında olan informasiyadan da istifadə oluna bilər. Bu informasiya rəyin tədqiqat hissəsində onların rekvizitləri əks olunmaqla verilməlidir (ünvan, firma, qeydiyyat tarixi).

Rəydə istifadə olunan informasiya mənbəyi qeyd oluna bilər (nəşrin adı, onun buraxılış ili və nömrəsi, istifadə olunan sənədin rekvizitləri və tarixi və sairə). Tədqiqat gedişində əmtəənin bazar qiymətinin müəyyən edilməsi ilə bağlı ekspert tərəfindən toplanmış qiymətlə bağlı bütün informasiya arxivdə saxlanılır və zəruri hallarda qiymətin hesablanması qaydasının müəyyən edilməsinin yoxlanılması üçün onunla tanış olmağa imkan verməlidir.

*4.3. Tədqiqat nəticələrinin tərtibi.*

Ekspert tədqiqatları nəticələri ekspert rəyində əks olunur.

*Rəyin giriş hissəsində* göstərilir: Məhkəmə ekspertizası idarəsinin adı; rəyin nömrəsi; ekspertizanın növü (əlavə, təkrar, kompleks, komisyon); ekspertizanın icaratı üçün əsaslar, ekspertizanın təyini barədə qərar,

bu qərarın nə vaxt və kim tərəfindən (məhkəmə, müstəntiq, prokuror və sair) çıxarılması; ekspert haqqında məlumat (adı və soyadı, tutduğu vəzifə, təhsili, ixtisası, iş stajı (ixtisas üzrə və ekspert stajı), elmi dərəcəsi; ekspert qarşısında qoyulan suallar; tədqiqat obyekti və iş materialları, digər materiallar; tədqiqat obyektinin ekspertiza idarəsinə çatdırılma üsulu və qablaşdırma; verilmiş vəsatətlər barədə məlumatlar; əvvəlki ekspertizalar və onların nəticələri barədə məlumatlar; əlavə ya təkrar ekspertizaların təyininin əsasları və motivləri.

*Rəyin tədqiqat hissəsində* aşağıdakılar öz əksini tapmalıdır: baxış nəticələri; arayış xarakterli informasiya mənbələri (nəşrin adı, nömrəsi və buraxılış tarixi, istifadə olunan sənədin rekvizitləri, tarixi və sairə) və ekspertiza icraatı zamanı istifadə olunan normativ sənədlər; metodika (tədqiqat proqramı) və tətbiq olunan metodlar; tədqiqat prosesi və nəticələri; illüstrasiyalara, əlavələrə istinadlar[1].

Rəyin «nəticə» hissəsində qarşıya qoyulmuş hər bir suala forma və məzmun baxımından cavab verilməli və ya bu sualın həllinin mümkün olmadığı göstərilməlidir.

---

[1] Методика определения рыночной стоимости товаров при производстве товароведческих экспертиз в экспертно-криминалистических службах ФТС России. М., 2004.

# 5. NƏQLİYYAT VASİTƏLƏRİNİN TƏDQİQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN METODİKİ ƏSASLARI

Müasir insanın həyatını avtomobilsiz təsəvvür etmək mümkün deyildir. Avtomobilə olan ehtiyac artdıqca nəqliyyat vasitələrinin sayı da gündən-günə artır. Alimlərin fikrincə, yaxın 100 il ərzində avtomobil hər bir ailənin xüsusi əşyasına çevriləcəkdir. Təxmini hesablamalara görə, hazırda dünyada 1 milyardadək avtomobil vardır. Ən çox avtomobil isə ABŞ, Çin və Yaponiyadadır. Bu üç ölkədə 430 milyondan çox avtomobil olduğu güman edilir. Fransa, İspaniya, Almaniya, İtaliya və İngiltərə kimi ölkələrdə isə adam başına bir avtomobil düşür.

Araşdırmalara görə, hər il dünyada 1 milyondan çox insan yol-nəqliyyat hadisələrinin qurbanı olur. Avtomobil qəzaları nəticəsində insanların həlak olması, xəsarət alaraq əlilə çevrilməsi artıq qlobal probleme çevrilmişdir. Yaxın 20 ildə dünyada avtomobillərin sayı iki dəfə artacağı proqnozlaşdırılır.

Azərbaycanda da avtomobillərin sayı durmadan artmaqdadır. 2012-ci ildə Bakıda hər min nəfərə 330 avtomobil düşmüşdür ki, bu da Avropa göstəricilərinə yaxındır. Dövlət Statistika Komitəsinin internet saytına istinadən deyə bilərik ki, 2011-ci ildə hər 100 ailədən 42-də şəxsi minik avtomobili olmuşdur.

2002-2012-ci illəri əhatə edən on ildə respublikada avtomobillərin sayı 2,4 dəfə artmışdır. 2012-ci ildə

Azərbaycanda avtomobillərin sayı 1,2 milyondan çox olmuşdur. Bunun 750 mini (62%) Bakı, qalanı isə bölgələrin payına düşür.

2014-cü ildə Azərbaycanda dövlət qeydiyyatına alınmış nəqliyyat vasitələrinin sayı 62863 ədəd artaraq 1 milyon 308 min 540 olmuşdur.

Eyni zamanda göstərmək lazımdır ki, Azərbaycanda «Avro-4» standartının tətbiqi ölkəyə köhnə maşınların gətirilməsinin qarşısını alması, habelə bankların avtomobil kreditlərini sərtləşdirilməsi nəticəsində 2013-cü illə müqayisədə 2014-cü ildə ölkəyə idxal edilən avtomobillərin sayı 62% azalmışdır. Bütün bunlara baxmayaraq, 2014-cü ildə Azərbaycana 63 minə yaxın yeni avtomobil gətirilmişdir.

Ölkədəki avomobillərin 72 faizi paytaxt Bakının payına düşür. Bunu yollarda müşahidə edilən tıxaclardan da görmək olar[1].

Hazırda dünyada quru ərazinin hər kvadrat kilometrinə 7 avtomobil düşür. Bakıda bu göstərici rekord səviyyəyə yüksəlib. Azərbaycan Texniki Universitetinin Avtomobil nəqliyyatı vasitələri kafedrasının müdiri Sülhəddin Gözəlov qeyd edir ki, «Bakı şəhərində olan avtomobillərin sayını onun ərazisinə bölsək, təqribən hər kvadrat kilometrə 400 avtomobil düşər»[2].

Avtomobillərin sayının artması, istismarda olan köhnə avtomobillərin xüsusi çəkisinin yüksək olması, təcrübəsiz sürücülərin hələ də kifayət qədər çox olması,

---

1 Azərbaycanda nə qədər avtomobil var?//www.gqn.az
2 "Zaman Azərbaycan»//www.trend.az

sürücələr, habelə piyadalar tərəfindən yol hərəkəti mədəniyyətinin aşağı səviyyədə olması və sair səbəb və şəraitlər respublika yollarında yol-nəqliyyat hadisələrinin baş verməsinə gətirib çıxarır.

2014-cü il ərzində yol hərəkətinə nəzarət prosesində 2.355.222 yol hərəkəti qaydaları pozuntusu qeydə alınmışdır.

2014-cü ildə nəqliyyat vasitələrinin sərxoş sürücülər tərəfindən idarə edilməsi üzrə 16.606, müəyyən olunmuş sürət həddinin aşılması üzrə 703.303 ötmə, manevr və qarşıdan gələn nəqliyyatın yoluna çıxma qaydalarının pozulması üzrə 233.968, yolayrıcları keçmə qaydalarının pozulması üzrə 124.724, svetoforun qadağanedici siqnallarının pozulması üzrə 125.026 fakt aşkar edilib. Yol-nəqliyyat qaydalarının pozuntusuna görə 2.744 sürücünün hüququ müxtəlif müddətlərə məhdudlaşdırılmışdır.

2014-cü il ərzində respublika ərazisində 2635 yol-nəqliyyat hadisəsi (YNH) qeydə alınmış, nəticədə 1124 nəfər həlak olmuş, 2676 nəfər yaralanmışdır. 2013-cü illə müqayisədə YNH-lərin sayı 211 fakt (7,4%), həlak olanların sayı 40 nəfər (3,4%), yaralanların sayı isə 272 nəfər (9,2%) azalmışdır.

Respublika üzrə qeydə alınmış YNH-lərin 93,4%-i (2462) sürücülərin YNQ pozmaları, o cümlədən 33,1%-i (872) ötmə və qarşıdan cələn nəqliyyatın yoluna çıxma, 28,1%-i (741) nəqliyyat vasitələrinin yüksək sürətlə idarə olunması, 8,4%-i (221) yolayrıcları keçmə qaydalarının pozulması, 2,1%-i (55) nəqliyyat vasitələrinin sərxoş

vəziyyətdə idarə olunması nəticəsində baş vermişdir. YNH-lərin 37,5%-i (988) piyadaların vurulması təşkil etmişdir, nəticədə 373 piyada həlak olmuş, 696-sı yaralanmışdır. 97 YNH piyadaların YNQ pozmaları nəticəsində baş verib. Respublika üzrə qeydə alınmış YNH-ləri nəticəsində 87 uşaq və yeniyetmə həlak olmuş, 242 nəfər yaralanmışdır. Ümumiyyətlə, qeydə alınmış YNH-ləri nəticəsində həlak olmuş 1124 nəfərdən 907-i kişi, 217-i qadın, xəsarət almış 2672 nəfərdən isə 2004-ü kişi, 672-i qadın olmuşdur[1].

Ölkəmizə gətirilən avtonəqliyyat vasitələrinin hər il dinamik artımı, öz növbəsində, həm yol-nəqliyyat hadisələrinin, həm də nəqliyyat vasitələri ilə bağlı ekspertizaların artmasına səbəb olmuşdur. Məhz buna görə məhkəmə ekspertizalarının yeni növü olan, avtoəmtəəşünaslıq ekspertizasına tələbat yaranmışdır. Ekspert-avtoəmtəəşünaslar nəqliyyat vasitələrini istehsal edildiyi andan zəmanət müddətinin sonuna qədər minimum keyfiyyətli olmaqla, heç bir istehsal qüsuru olmayan mal kimi tədqiq edirlər. Avtonəqliyyat vasitəsi texnologiyaya müvafiq olaraq, yol-nəqliyyat hadisəsində zədələndikdən sonra təmir və bərpa edilməsi mümkün olmalıdır. Təmir işlərinin (zərərin) dəyəri istehsalçı-zavodun normativlərinə, ekspert metodikasına ciddi riayət edilməklə hesablanmalıdır.

Əmlak mübahisələrinin yaranması və avtomobil vasitələrinin istismarı ilə bağlı hüquq pozuntularının araşdırılması zamanı ekspert-əmtəəşünaslara təhqiqat və

---

[1] www.dyp.gov.az

istintaq orqanları, prokurorluq və məhkəmələr tərəfindən müraciət halları çox olur[1].

**Avtoəmtəəşünaslıq ekspertizasının obyektləri aşağıdakılardır:**

- mürəkkəb məmulat kimi bütövlükdə avtonəqliyyat vasitəsi;
- avtonəqliyyat vasitəsinin aqreqatları, detalları və hissələri;
- avtoistehsalçıların, avtoxidmət müəssisələrinin, ticarət müəssisələrinin və digər təşkilatların nümayəndələrinin informasiyaları;
- tədqiqatın aparılması üçün təqdim olunan sənədlər.

**Avtoəmtəəşünaslıq ekspertizasının predmeti aşağıdakılardır:**

- avtonəqliyyat vasitəsinin markası, modeli, növü;
- avtonəqliyyat vasitəsinin buraxılış tarixi;
- avtonəqliyyat vasitəsinin ümumi texniki vəziyyəti;
- avtonəqliyyat vasitəsinin komplektliliyi, detalllların, hissələrin, aqreqatların avtonəqliyyat vasitəsinə mənsubiyyəti (əgər bunun üçün digər ekspertiza növünün aparılması tələb olunmadıqda);
- avtonəqliyyat vasitəsinin zədələnməsi, qüsurları, nasazlığı.

**Ekspert-avtoəmtəəşünasın səlahiyyətinə daxildir:**

- avtonəqliyyat vasitəsinin eyniləşdirilməsi və

---

[1]Həsənov Q., Vəliməmmədov F. Nəqliyyat vasitələrinin tədqiqi və qiymətləndirilməsi. Bakı, 2008.

avtonəqliyyat vasitəsinin növünün, markasının, modelinin, buraxılış tarixinin, texniki xarakteristikalarının nəqliyyat vasitəsinin qeydiyyatı haqqında şəhadətnamədə qeyd olunmuş məlumatlara uyğunluğunun yoxlanılması (əgər bunun üçün digər ekspertiza növünün aparılmasına zərurət yaranmadıqda);

- avtonəqliyyat vasitəsinin texniki vəziyyətinə və texniki zədələrin mövcudluğuna dair məlumatların yoxlanılması, avtonəqliyyat vasitəsindəki zədələrin xarakterinin və onların aradan qaldırılması üsullarının müəyyən edilməsi;
- bərpa-təmir işlərinin dəyərinin (köhnəlmə nəzərə alınmaqla) müəyyən edilməsi;
- avtonəqliyyat vasitəsinin dəyərinin (gömrük xərcləri nəzərə alınmaqla) müəyyən edilməsi;
- yol-nəqliyyat hadisəsi nəticəsində avtonəqliyyat vasitəsinin əmtəə dəyər itgisinin həcminin müəyyən edilməsi;
- avtonəqliyyat vasitəsinin təmir və istehsal keyfiyyətinin qiymətləndirilməsi;
- avtonəqliyyat vasitəsinin bərpasına çəkilmiş xərclərin hesablanmasının qüvvədə olan normativ sənədlərə uyğunluğunun yoxlanılması[1].

Məhkəmə ekspertizasının yuxarıda sadalanan bir sıra məsələlərini nəqliyyat ekspertizalarına aid olmayan digər ekspertizaların aparılmasından sonra həll etmək mümkündür. Məsələn, əvvəllər qaçırılmış maşının

---

[1] Həsənov Q., Vəliməmmədov F. Nəqliyyat vasitələrinin tədqiqi və qiymətləndirilməsi. Bakı, 2008, s.4-5

eyniləşdirilməsi üçün maşının qaçırılmasından sonra kuzovun və mühərrikin nömrələrinin qəsdən dəyişdirilməsi mümkünlüyü ilə bağlı onların yoxlanılması üçün trasoloji tədqiqatların aparılması zəruridir.

Kompleks məhkəmə ekspertizalarının aparılması zamanı ekspert-avtoəmtəəşünaslar öz vəzifələrini yanğın-texniki, metalşünaslıq, kimyəvi ekspertizalarla yanaşı yerinə yetirirlər.

Bu cür araşdırmalar nəticəsində istintaq və məhkəmələr qarşısında duran əksər mürəkkəb məsələlərin həll olunması mümkündür.

Məhkəmə-avtoəmtəəşünaslıq ekspertizasının əsas vəzifələrindən biri cinayət və mülki işlərin icraatı nəzərə alınmaqla, müasir praktikanın analizi və ümumiləşdirilməsi əsasında ekspert metodikasının təkmilləşdirilməsindən ibarətdir. Aşağıda xüsusi əmtəə, mürəkkəb məmulat növü kimi avtonəqliyyat vasitələrinin, onların müxtəlif markalarının və modellərinin orta bazar qiymətinin müəyyən edilməsinin metodiki əsasları nəzərdən keçirilmiş, bir sıra metodiki tövsiyələr verilmişdir.

***Müxtəlif markalı və modeli avtomaşınların orta bazar qiyməti aşağıdakı qaydalarla müəyyən olunur:***

**1.** Avtomaşında mövcud olan qüsurları nəzərə alaraq kataloq qiymətinə müvafiq qiymətin aşağı düşməsi faizləri tətbiq olunur:

**Ban**

- banda rəngləri fərqlənən zədələnmə yerlərinə görə (hər 10x10 sm sahəyə, zədələnən hissələrin sayı

çoxaldıqca müvafiq olaraq faiz artır) – 1-2%;

- ban armaturlarının boşalması – 0,5%;
- birləşmə tikişlərinin korroziyası – 0,5-2%;
- dayaqlarda çat olması – 0,1-0,3%;
- səthdə ləkələrin olması 1 kv.m-ə kimi – 1-1,5%;
- oturacaqların örtüklərinin əmtəə görünüşünün itirilməsi, sökülməsi – 2-3%.

**Mühərrik**

- klapanlardan kənar səs gəlməsi – 0,5%;
- şatunlardan səs gəlməsi – 2-3%;
- yağın təzyiqinin aşağı olması – 2-3%;
- zəif kompressiya – 2-3%;
- birləşmə yerlərindən yağ axması – 1-1,5%;
- antifriz axması – 0,5-1%;
- şamlarda qalın qurum – 0,05%;
- mühərrikin çətin işə düşməsi – 2%;
- mühərrikin ümumiyyətlə işə düşməməsi – 5%.

**Güc qovuşmaları**

- sipleniyenin boş fırlanması – 0,1%.

**Ötürücü qutu**

- çarpaz yastığının aşınması – 0,2%;
- dayaq yastığının aşınması – 0,2%.

**Körpü**

- kipgəcdən yağ axması – 0,2%;
- körpudən səs gəlməsi - 1-2%

**Asqılar**

- asqılarda boşluq olması və kənar səs gəlməsi – 0,05%

**Əyləc**

- əyləc mayesinin axması – 0,1%;
- əyləc pedalının boş hərəkəti – 0,01%;
- əyləc zamanı a/m-nın kənara dartılması – 0,05%;
- dayanma məsafəsinin uzanması – 0,1%.

**Sükan**

- lüftün normadan artıq olması – 0,05%;
- karterin boşalması – 0,05%.

**Elektroavadanlıq**

- xarici işıqlandırıcıların nasazlığı – 0,01-0,05%;
- akkumlyatorun nasazlığı – 0,01%;
- elektrik naqilinin nasazlığı – 0,01%;
- avtomaşının ayrı-ayrı ban hissələrinin rəngində fərq varsa, avtomaşın təmirdə olursa – 10- 15%;
- mühərrik nasazdırsa, mühərrikin əsaslı təmirə ehtiyacı varsa – 5-10%;
- avtomaşının banında korroziya ləkələri aşkar olunubsa – 10-15%;
- avtomaşının üstündəki təkərlər istifadəyə yararsızdırsa – 1-3%.

**2**.İstismar yolunun kateqoriyasından asılı olaraq minik avtomaşınlarının qalıq qiymətini müəyyən edərkən aşağıdakı əmsallar tətbiq olunur:

- 1-ci dərəcəli yola – 1,0 (asfalt və beton örtüklü böyük şəhər yolları);
- 2-ci dərəcəli – 0,8 (rayonların asfalt və torpaq yolları);
- 3-cü dərəcəli yola – 0,6 (dağ rayonu yolları).

**3**.Rusiyada istehsal edilmiş minik avtomaşınların ilkin əsaslı təmirədək qaçış yolu norması aşağıdakı kimi

nəzərdə tutulmuşdur:

- «VAZ-2106» və «VAZ-2107» markalı avtomaşın – 216000 km;
- «VAZ-2111» və analoji modellər – 360000 km;
- «QAZ» modelli avtomaşınlar – 450000 km.

**4**.Avtomaşının açıq hava şəraitində saxlanmasına görə il üçün 6%, qaraj şəraitində saxlanılan avtomaşının illik köhnəlmə faizi 2% nəzərdə tutulmuşdur. Avtosalonlarda satılmayan xarici avtomaşınlara bir illik köhnəlməsi təxminən 10% tətbiq olunur.

***Ekspert təcrübəsindən misallar:***

**1-ci misal**: faktiki 68000 km yol qət etmiş, 5 il qaraj şəraitində saxlanılmış, Bakı şəhərində istifadə olunmuş, təzə vəziyyətdə qiyməti 5800,00 manat olan «VAZ-2107» markalı avtomaşının ekspertiza keçirilən günə qalıq qiyməti düsturla aşağıdakı kimi hesablanır:

KF = AQY / (YN x Ə) x100 + İM x SŞ

Burada:

KF – köhnəlmə faizi;

AQY - avtomaşının qət etdiyi yol;

YN - avomaşının yol norması;

İM – avtomaşının istismar müddəti;

SŞ – avtomaşının saxlanma şəraiti;

Ə – istismar edildiyi yola görə əmsal.

Köhnəlmə faizi 68000/(216000x1,0)x100 = 31,5% + 5x2% = 41,5:

Qalıq qiyməti = 5800 man – (5800man x 41,5% : 100) = 3393,00 manat.

Beləliklə, avtomaşının qalıq qiyməti 3393,00

manat müəyyən olunur.

**2-ci misal.** Faktiki 170000 km yol qət etmiş, 1992-ci il buraxılışlı, «Mersedes-Bens» markalı, «200E» modeli kompleksinə kondisioner, mərkəzi qıfıl, lyuk, avtomat korobka, maqnitola daxil olan, benzinlə işləyən, gömrük xərci ödənilmiş, Bakıda 2 il istismarda olmuş avtomaşına baxış keçirərkən avtomaşının hər iki qanadının, arxa panelinin, arxa bamperinin və baqaj qapağının təmin edilməsi və banın bütün səthinin yenidən laklanması aşkar olunmuşdur. Bu zaman avtomaşının qiymətinə təsir edən faizlər aşağıdakı kimi müəyyənləşdirilir:

- avtomaşının arxa hissəsinin təmirə məruz qalmasına görə – 15%;
- avtomaşının yenidən laklanmasına görə – 5%;
- normal əmtəə görüntüsünə malik, təyinatı üzrə istifadəyə tam yararlı, üstündə qeyd olunan bütün aksessuarları olan, 1992-ci il buraxılışlı, «Mersedes-Bens» markalı, «200E» markalı avtomaşının respublikadaxili bazar qiymətinin 9845,00 manat olması və 20% çıxılma tətbiq edilməklə qalıq qiyməti 7880,00 manat müəyyən olunur.

Nəqliyyat vasitələrinin köhnəlməsinin hesablanma düsturu çox vaxt gözlənilməz nəticələrə gətirir (məsələn, 10 il istismarda olan avtomobil aşağı köhnəlmə dərəcəsinə (20% ətrafında) malik ola bilər). Belə ki, odometrə müvafiq olaraq, ekspert tərəfindən qəbul olunan avtomobil yürüşünün həcmi avtomobilin sahibi və ya satıcı tərəfindən müdaxilə nəticəsində istənilən zaman aşağı salına bilər. Bu zaman istismar zamanı spidometrin

dəyişdirilməsi və s. hallarda mümkündür. Nəqliyyat vasitəsinin köhnəlmə dərəcəsi elə şəkildə hesablanmalıdır ki, avtomobilin yürüşünün həcmi qiymət artımına əsaslı təsirə malik olmasın, avtomobilin dəyəri isə bazar qiymətinə maksimal yaxın olsun. Bazar qiyməti isə əsas parametrlərlə yanaşı, buraxılış ili ilə və avtomaşının faktiki vəziyyətinə uyğun müəyyən olunur[1].

Qeyd olunanlarla yanaşı Məhkəmə Ekspertiza Mərkəzində yol-nəqliyyat hadisələri nəticəsində nəqliyyat vasitələrinə dəymiş ziyanın müəyyən olunması ilə bağlı əmtəəşünaslıq ekspertizalarının təyini və aparılması vəziyyəti öyrənilmişdir.

Məlum olduğu kimi, bu növ ekspertizalar nəqliyyat vasitələrinin hansı hissələrinin zədələndiyini, onların təmir olunması və ya dəyişdirilməsi imkanlarını, habelə dəyişdirilməsinə ehtiyac olan hissələrin orta bazar qiymətini və təmir üçün çəkiləcək xərcləri müəyyən etmək məqsədi ilə təyin olunur.

Ekspert təcrübəsindən görünür ki, nəqliyyat vasitələrində daxili zədələr olduğu halda vizual baxış keçirməklə avtomobilin zədələnmiş hissələrini tam şəkildə aşkar etmək mümkün deyildir. Ona görə nəqliyyat vasitələri ixtisaslaşdırılmış servis şəraitində təmir üzrə mütəxəssislər tərəfindən sökülməli, müxtəlif testlər keçirilməli, nəticəsi barədə ziyan və ya qüsur aktı tərtib edilməlidir.

---

[1] Həsənov Q., Vəliməmmədov F. Nəqliyyat vasitələrinin tədqiqi və qiymətləndirilməsi. Bakı, 2008, s.11

Bundan sonra məhkəmə-əmtəəşünaslıq ekspertizası təyin edilməli, həmin sənədlər nəqliyyat vasitələrinin qeydiyyat şəhadətnaməsi və iş materialları ilə birlikdə ekspert tədqiqatına təqdim olunmalıdır.

Göstərilənlər nəzərə alınaraq, nəqliyyat vasitələrinə dəymiş ziyanın müəyyən olunması zərurəti yarandıqda, nəqliyyat vasitələrinin hansı hissələrinin zədələndiyi, onlardan hansının təmirlə bərpa oluna biləcəyi, hansının isə dəyişdirilməli olduğu barədə məhkəmə və istintaq orqanları tərəfindən təyin olunan ixtisaslaşdırılmış servis müəssisəsinin mütəxəssis arayışı əsasında əmtəəşünaslıq ekspertizasının aparılması məqsədəmüvafiq hesab olunur.

## 6. MƏHKƏMƏ-ƏMTƏƏŞÜNASLIQ EKSPERTİZASI RƏYİNİN MÖTƏBƏRLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məhkəmə-əmtəəşünaslıq ekspertizası bir sıra səciyyəvi xüsusiyyətlərə malik olsa da, lakin bütövlükdə onun icraatı digər ekspertiza növlərinə tətbiq edilən eyni prinsiplər üzrə təşkil edilir. Məhkəmə-əmtəəşünaslıq ekspertizasında ekspert rəyinin mötəbərliyi aşağıdakı meyarlarla qiymətləndirilir:

**1. Seçilmiş metodikanın elmi əsaslılığı.** Əmtəəşünaslıq ekspertizası sahəsində artıq çoxdan işlənilmiş və uğurla özünü doğrultmuş, sınaqdan çıxarılmış kifayət qədər metodikalar vardır. Lakin bu, daha çox yeniliklərlə və innovasiyalarla o qədər də zənginləşməyən ənənəvi əmtəəşünaslıq tədqiqatları sahəsinə aiddir. Məsələn, illərlə sınaqdan çıxarılmış texnologiyalar üzrə istehsal edilən toxuculuq və ya qida məhsullarının əmtəəşünaslıq tədqiqatı. Lakin maraqlı bir asılılıq mövcuddur – eksperti maraqlandıran əmtəənin istehsal edildiyi istehsalat nə qədər çox innovasiyalıdırsa, ekspertiza da bir o qədər çox innovasiyalı tədqiqat metodlarından istifadəni tələb edir. Xüsusilə bu, informasiya texnologiyaları, proqram məhsulları və sairə ilə bağlı əşyalara (mallara) aiddir. Belə hallarda seçilmiş metodikanın elmi əsaslılığının qiymətləndirilməsi olduqca problemlidir.

**2.Motivləşdirilmiş.** Bu meyar bütün ekspertiza

növləri üçün eynidir. Bu halda ekspertdə əlavə motivlərin mövcudluğu, onun işin nəticəsində marağı olan hər hansı bir şəxslə qohumluq əlaqələrində və digər münasibətlərdə olduğu və sairə aydınlaşdırılır.

**3. Hərtərəflilik.** Ekspert, qiymətləndirməyə məruz qalan obyekti tam şəkildə əhatə etməli, obyektin bütün tərəflərini, xassə və əlamətlərini qiymətləndirməli və bununla bağlı məlumatlar rəydə öz əksini tapmalıdır.

**4. İnandırıcılıq.** Ekspert tərəfindən verilmiş rəy obyektiv sübut hesab edilə bilməsi, əhəmiyyətini, mahiyyət və məzmun baxımından düzgünlüyünü, rəyin ümumiyyətlə iş üçün faydalı olub olmamasını səciyyələndirən meyar kimi nəzərdən keçirilə bilər.

**5. Tamlıq.** Ekspertin, istintaq tərəfidən qarşıya qoyulan bütün suallara cavab verə bildiyini, onun tərəfindən maksimal dərəcədə tam cavabların formulə edildiyi əks etdirir.

**6. Obyektivlik.** Rəyin əsaslı hesab edilməsinin əsas meyarlarından biridir. Rəy obyektivlik haqqında təsəvvürlərə zidd olmamalıdır.

**7. Ekspert qiymətləndirilməsinə məruz qalan məsələnin (sualın) ekspertin səlahiyyətinə uyğunluğu.** Ekspert, ekspertizanın aparılması üçün kifayətedəcək səviyyədə ixtisaslı olmalıdır. Müstəntiq, prokuror və ya məhkəmə tərəfindən formulə edilən və ekspert qarşısında qoyulan məsələlər (suallar) ekspertin səlahiyyəti çərçivəsindən kənara çıxan məsələlərə toxunmamalıdır.

**8. Ekspert tərəfindən qüvvədə olan**

**qanunvericilik normalarına əməl edilməsi** - ekspertiza icraatı gedişində ekspertin ayrı-ayrı hərəkətləri və onun tərəfindən həyata keçirilən qiymətləndirmə qüvvədə olan qanunvericilikdə təsbit olunmuş normalara uyğun olmalıdır.

**9. Kifayətlilik.** Rəy tam sübut kimi hesab edilməsi üçün kifayətedici olmalıdır. Dəqiqləşdirmə tələb edən hər-hansı bir sual (suallar) qalmışdırmı? Ekspertiza icraatına kifayət qədər materiallar təqdim edilmişdirmi, dəqiqləşdirmə və ya təkrar ekspertizanın təyini tələb olunurmu. Qeyd olunanlar əlavə və ya təkrar ekspertizaların aparılmasını, bir sıra hallarda ekspertin məhkəmədə dindirilməsini şərtləndirən əsas amillərdən biridir.

**10. Nəticələrin ekspertizanın məzmununa uyğunluğu** - formulə olunmuş suallarla ekspert tərəfindən onlara verilən cavabların nə qədər dəqiqliklə üst-üstə düşdüyü müqayisə olunaraq təhlil edilməlidir.

Əmtəəşünaslıq ekspertizası rəyinin mötəbərliyinin qiymətləndirilməsi ekspertin digər fəaliyyət istiqamətlərində mövcud olan bu cür prosedurlardan hər hansı bir ciddi və xüsusi fərqləri yoxdur. Lakin əmtəə istehsalında tətbiq olunan innovasiya texnologiyalarına xüsusi diqqət yetirmək lazımdır. Məsələn, ekspertin sərəncamına hazırlanma resepti yüz illiklər ərzində dəyişməyən pendirin təqdim edilməsi bir başqa, dünyanın yalnız dünən bildiyi ən yeni texnologiyanın keyfiyyətinin qiymətləndirildiyi başqa bir şeydir.

Əgər söhbət hər-hansı bir ən yeni işləmədən

(istehsaldan) gedirsə və prosesə minimal sayda şəxslər cəlb olunubsa, onda bu işləmənin (istehsalın) ekspert qiymətləndirilməsi obyekti olduğu halda çoxsaylı mürəkkəbliklər yaranır. Elmi-texniki tərəqqi dövründə bir sıra sənaye sahələrinin nəhəng templərlə və intensiv inkişaf edir və ekspertlər birliyi (məhkəmə ekspertizası idarələri) keyfiyyətli əmtəəşünaslıq ekspertizasının aparılması, ekspert rəylərinin mötəbərliyinin obyektiv olaraq müəyyən edilməsi üçün ekspertlər və ya mütəxəssislər hazırlamağa sadəcə olaraq imkan tapmır və müəyyən mənada bu prosesdən bir qədər geri qalırlar.

# 7. MƏHKƏMƏ-ƏMTƏƏŞÜNASLIQ EKSPERTİZASI İCRAATI ZAMANI EKSPERTLƏRİN PROFİLAKTİK FƏALİYYƏTİ

Məlum olduğu kimi, cinayətlərin baş verməsinə şərait yaratmış (şərait yarada biləcək) halların aşkar edilməsi, xüsusi biliklərdən istifadə edilməklə onların aradan qaldırılması üzrə tövsiyələrin işlənib hazırlanması məhkəmə ekspertizasının hər bir növünün predmetinə aiddir.

Digər ekspertiza növlərində olduğu kimi, ekspert-əmtəəşünaslar da profilaktik fəaliyyət sahəsində müəyyən imkanlara malikdirlər[1].

Məhkəmə-əmtəəşünaslıq ekspertizalarının icraatı prosesində ekspertlər aşağıdakı halları üzə çıxara bilərlər:

- əmtəə-material qiymətlilərin keyfiyyət göstəricilərinə dair DÜİST və TŞ-in tələblərinin, malın qəbuluna, daşınmasına, saxlanmasına və satışına dair qaydaların pozulması;
- malların saxlanılması, daşınması və satışı zamanı nəzərdə tutulmuş təbii itki normalarının düzgün tətbiq edilməməsi;
- qiymət intizamının pozulması, yəni pərakəndə (sərbəst) və topdan satış qiymətlərinin düzgün tətbiq

---

[1] Cavadov F.M., Əhmədov C.S., Vəliyev H.T. Məhkəmə ekspertinin profilaktik fəaliyyətinə dair metodik tövsiyələr. Bakı, 2005, s.7.

edilməməsi;

- mümkün olan qarşılıqlı əvəzləşdirmənin düzgün aparılmaması;

- əmətəələr üzrə ucuzlaşdırma və yenidən qiymətləndirmənin düzgün aparılmaması;

- malların silinməsinin düzgün həyata keçirilməməsi;

- məhsulun keyfiyyət göstəricilərinin (keyfiyyətsiz, qeyri-standart və komplektsiz məhsul) düzgün müəyyən edilməməsi»[1].

İstintaq orqanları, məhkəmələr cinayət, mülki və inzibati-iqtisad işləri üzrə ekspertizalar təyin edərkən ekspert-əmtəəşünaslar qarşısında digər suallarla yanaşı, cinayətin baş verməsinə şərait yaratmış hallar barədə də suallar qoya bilər. Həmçinin, işin hallarından asılı olaraq cinayətin, digər hüquq pozuntusunun baş verməsinə şərait yaratmış halların müəyyən edilməsi üçün xüsusi olaraq ekspertiza təyin edilə bilər. Bu zaman profilaktik xarakterli sualları təxminən aşağıdakı formalarda ifadə etmək məqsədəuyğundur:

- qəbulun, saxlanılmanın, daşınmanın və satışın hansı qaydalarının pozulması əmtəə-material qiymətlilələrinin çatışmazlığına səbəb olmuşdur?

- dəymiş ziyanın vaxtında aşkar edilməməsinə, əmtəələrin düzgün ucuzlaşdırılmaması və ya yenidən qiymətləndirilməməsinə bu malların uzunmüddətli

[1] Cavadov F.M., Əhmədov C.S., Vəliyev H.T. Məhkəmə ekspertinin profilaktik fəaliyyətinə dair metodik tövsiyələr. Bakı, 2005, s.14

saxlanılmağa qoyulması səbəb ola bilərmi?

- dəymiş ziyanın vaxtında aşkar edilməməsinə, əmtəələrin saxlanılması, daşınması və satışı zamanı mövcud qaydaların tələblərinə müvafiq təbii itki normalarının düzgün tətbiq edilməməsi səbəb ola bilərmi?

- çatışmazlığın vaxtında aşkar edilməməsinə pərakəndə və topdansatış qiymətlərinin düzgün tətbiq edilməməsi, növ dəyişkənliyi nəticəsində əmələ gəlmiş müvafiq əvəzləşdirmənin aparılmaması və ya düzgün aparılmaması səbəb ola bilərmi?

- keyfiyyət göstəricilərinin düzgün müəyyən edilməməsi keyfiyyətsiz (qeyri-standart, qeyri-komplekt) mal istehsalına səbəb ola bilərmi?

- hansı qayda pozuntuları keyfiyyətsiz qida məhsullarının istehsalına şərait yaratmış, bu pozuntuların aradan qaldırılması yolları hansılardır?[1].

---

[1] Cavadov F.M., Əhmədov C.S., Vəliyev H.T. Məhkəmə ekspertinin profilaktik fəaliyyətinə dair metodik tövsiyələr. Bakı, 2005, s.21-22

# ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası CPM-nin Kommentariyası. 1-ci cild. Bakı, 2003.

2. Qısa iqtisadi lüğət. Bakı, 1989.

3. İsrafilov M. Məntiq terminlərinin izahlı lüğəti. Bakı, 2007.

4. Məhkəmə ekspertizası qarşısında qoyulan sualların nümunəvi siyahısı. Bakı, 2005.

5. Məhkəmə ekspertizası. Sxemlər toplusu (Dərs vəsaiti). Bakı, 2007.

6. Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997.

7. Həsənov Q. Məhkəmə-iqtisad ekspertizaları. Bakı, 2007.

8. Həsənov Q., Vəliməmmədov F. Nəqliyyat vasitələrinin tədqiqi və qiymətləndirilməsi. Bakı, 2008.

9. İzahlı statistika terminləri lüğəti/Lüğət A.N.Mansurovun təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq tərtib olunmuşdur. Bakı, 2010, s.201

10. Арсеньев В.Д. Соотношение понятий предмета и объекта судебной экспертизы//Проблемы теории судебной экспертизы. Сб.н.тр. М., 1980. Вып.44, с.9-10.

11. Белкин Р.С. и др. Теория доказательств в советском уголовном процессе. М., 1973.

12. Вилкова С.А. Методология товароведческих экспертиз. Автореф.дисс…к.ю.н. М., 2004.

13. Исследование автомототранспортных средств

в целях определения стоимости восстановительного ремонта и оценки (методическое руководство для экспертов). М., 2008.

14. Корухов Ю.Г. Экспертные и неэкспертные трассологические исследования в уголовном процессе //Актуальные проблемы теории судебной экспертизы. Сб.н.тр. ВНИИСЭ. М., 1984, с.26

15. Методика определения рыночной стоимости товаров при производстве товароведческих экспертиз в экспертно-криминалистических службах ФТС России. М., 2004.

16. Орлов Ю.К. Заключение эксперта и его оценка (по уголовным делам). М., 1995.

17. Россинская Е.Р. Комментарий к Федеральному закону «О государственной судебно-экспертной деятельности в РФ». М., 2002.

18. Селиванов А.А. Частная методика производства товароведческой экспертизы при исследовании мебели// Теория и практика судебной экспертизы: науч.-практ.журнал. М., 2006, №2.

19. Селиванов А.А., Лактионова М.А. Частная методика производства судебно-товароведческих экспертиз имущества, пострадавшего в результате аварийных ситуаций// Теория и практика судебной экспертизы: науч.-практ.журнал. М., 2007, №2(6)

20. Словарь основных терминов судебной экспертизы. М., 1987.

21. Спицкая Л.В. Словарь основных терминов судебно-товароведческой экспертизы ювелирных

изделий. М., 2005.

22. Тетюхин И.Н., Бугакова Н.О. Комплексная судебная экспертиза непродовольственных товаров // Вопросы современной науки и практики. 2015, №1, с.119-126.

23. Толмачева С.С. Методические рекомендации производства судебно-товароведческой экспертизы при решении вопросов, связанных с определением стоимости товаров (подготовлены на основе обобщения экспертной практики товароведческих подразделений судебно-экспертных учреждений Минюста России)//. Теория и практика судебной экспертизы: науч.-практ.журнал. М., 2007, №2(6).

24. Толмачева С.С., Карпова И.С. Предмет, объекты и задачи судебно-товароведческой экспертизы: метод.пособ. М., 2002.

25. Толмачева С.С., Карпова И.С. Современные возможности судебно-товароведческой экспертизы: информационное письмо. М., 2003.

26. Толмачева С.С., Карпова И.С., Покидышева А.Я. Словарь основных терминов судебно-товароведческой экспертизы. М., 2003.

27. Толмачева С.С., Селиванов А.А. Информационное письмо «О недостатках производства судебно-товароведческих экспертиз в судебно-экспертных учреждениях Министерства юстиции Российской Федерации при решении вопросов, связанных с определением рыночной стоимости товаров»// Теория и практика судебной экспертизы:

науч.-практ.журнал. М., 2007, №2.

28. Чаадаев С.Г., Чадин М.В. Судебно-экономическая экспертиза // Черные дыры в российском законодательстве. 2001. №1.

29. Шляхов А.Р. Классификация судебных экспертиз. Волгоград, 1980.

30. Штоф В.А. Проблемы методологии научного познания. М., 1978.

31. Энциклопедия судебной экспертизы //Под ред. Т.В.Аверьяновой, Е.Р.Россинской. М., 1999.

## MÜNDƏRİCAT


Giriş ....... 3

1. Məhkəmə-əmtəəşünaslıq ekspertizasının predmeti, vəzifələri, həll etdiyi məsələlər dairəsi ....... 7

2. Məhkəmə-əmtəəşünaslıq ekspertizasının obyektləri və tədqiqat üçün lazım olan materiallar ....... 34

3. Məhkəmə-əmtəəşünaslıq ekspertizasının metodiki əsasları və metodologiyası ....... 44

4. Məhkəmə-əmtəəşünaslıq ekspertizalarının icraatı zamanı malların (əmtəənin) bazar qiymətinin müəyyən edilməsi metodikası ....... 50

5. Nəqliyyat vasitələrinin tədqiqi və qiymətləndirilməsinin metodiki əsasları ....... 58

6. Məhkəmə-əmtəəşünaslıq ekspertizası rəyinin mötəbərliyinin qiymətləndirilməsi ....... 71

7. Məhkəmə-əmtəəşünaslıq ekspertizası icraatı zamanı ekspertlərin profilaktik fəaliyyəti ....... 75

Ədəbiyyat ....... 78

# Q e y d l ə r

*Formatı: 60×84 $\frac{1}{8}$. Əla növ kağız. "Propolis" MMC-də çapa hazırlanmış və rizoqrafda çoxaldılmışdır. Şərti çap vərəqi 5,1. Tirajı 300 nüsxə. Sifariş №03.*